

## Azərbaycan və Rusiya Prezidentləri arasında telefon danışığı olub

Səhifə 2

# Bakı Zooloji Parkının yenidənqurmadan sonra açılışı olub



Səhifə 2

Səs
№ 183 (6383) 8 oktyabr 2021-ci il. Qiyməti 40 qəpik



## Siyasi partiya rəhbərlərinin növbəti görüşü Şuşada təşkil olunub

4




## Rusiya nəşri:

### "Azərbaycan işğal illərində daşı daş üstündə qalmamış ərazilərini bərpa edir"

5



# Türkiyənin nüvə silahına malik olması reallığa çevrilir

Səhifə 4

## Azərbaycan neftinin maya dəyəri nə qədərdir




2020-ci ildə 1 ton neftin istehsal maya dəyəri 118,85 manat təşkil edib və keçən ilin müvafiq dövrü ilə müqayisədə 4,97 manat və ya 4 % azalıb. SİA-nın məlumatına görə, bu barədə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) illik hesabatında qeyd olunub. Şirkət üzrə neftin hasilatına çəkilən cəmi istehsal xərclərinin tərkibində material xərclərinin xüsusi çəkisi 3,4%, əmək...

Səhifə 10

Bax 6

## İslam: fanatizm, yoxsa vəhdət?

Prezident İlham Əliyev: "Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti...

Bax 7

## ŞOK FAKT: Serjikə komsomol bileti Ağdamda verilib!

Prezident İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində çıxışı zamanı Ermənistanın keçmiş...

Bax 10

## Neçə şəhid ailəsi və qazi işlə təmin olunub?

Möhtəşəm Zəfərimizlə başa çatan Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, müharibənin qazilərinin, erməni...

## Xaricdə dini təhsil təhlükə yaradırmı?



## Çox qida qəbul etmək ziyanlıdır, yoxsa əksinə?



Səhifə 16

## Rusiya İrana niyə dəstək vermədi? - Tehranın planları süquta uğrayır






## SİYASİ QALMAQAL: Çavuşoğlundan Makrona: "Sözün varsa, üzümüzə de"

9

"Deyəcək sözün varsa, üzümüzə de!". SİA xəbər verir ki, bunu Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu Fransa prezidenti Emmanuel...



## "Ermənistandakı etiraz aksiyalarının iki səbəbi var"

9

"Ermənistanda etiraz aksiyalarını Robert Koçaryan özü elan edibdir və o öz tərəfdarlarını etiraz aksiyalarına...

# Azərbaycan və Rusiya Prezidentləri arasında telefon danışığı olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.**

Dövlətimizin başçısı Rusiya Prezidentini ad günü münasibətilə təbrik edib, ona ölkənin inkişafı və firavanlığı naminə dövlətçilik fəaliyyətində yeni uğurlar, möhkəm cansağlığı arzulayıb. Vladimir Putin göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Dövlət başçıları Azərbaycan-Rusiya ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əmin olduqlarını bildirib, əlaqələrimizin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıblar. Telefon söhbəti zamanı bölgədəki vəziyyət müzakirə edilib.

## Rəsmi xronika

Prezident İlham Əliyev Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin yaradılması haqqında Fərman imzalayıb.

Prezident İlham Əliyev torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında Fərman imzalayıb.

# Bakı Zooloji Parkının yenidənqurmadan sonra açılışı olub

**Oktyabrın 7-də Bakı Zooloji Parkının yenidənqurmadan sonra açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva açılışda iştirak ediblər. Bakı Zooloji Parkı IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yenidən qurulub.**









## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər



**Xatırladaq ki, vaxtilə Bakıda ilk dəfə Heyvanat Parkı adlandırılan zoopark 1928-ci ildə Xətai rayonundakı Nizami parkının ərazisində açılıb. 1958-ci ildə isə Bayıl ərazisində yeni Heyvanat Parkı fəaliyyətə başlayıb. 1985-ci ildə torpaq sürüşməsindən sonra Zoopark Bayıldan indiki ərazisinə köçürülüb. Əvvəllər ərazinin təmirsiz olması ilə yanaşı, heyvanların saxlanıldığı yerlər də yararsız vəziyyətdə olub.**

IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə burada genişmiqyaslı yenidənqurma işləri aparılıb. Təxminən 4 il davam edən əsaslı yenidənqurma işləri nəticəsində Bakı Zooloji Parkı ən müasir səviyyəyə çatdırılıb.

Prezident İlham Əliyevin ölkəmizin inkişafı ilə bağlı müəyyən etdiyi strategiyada Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində görülən işlərin miqyası ilbəil daha da artır. Son illərdə Bakıda sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığına xidmət edən çoxlu müasir sosial infrastruktur layihələri icra edilib, yeni park və xiyabanlar, istirahət guşələri yaradılıb. Şəhər həyatının müxtəlif layihələrlə zənginləşdirilməsi sırasında IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yenidən qurulan Bakı Zooloji Parkının xüsusi yeri var. Ümumilikdə, IDEA İctimai Birliyi paytaxtla yanaşı, bölgələrdə də ətraf mühitin mühafizəsi və ekoloji problemlərin həlli istiqamətində çox mühüm layihələr icra edib. Bakı Zooloji Parkı dünyada mövcud olan müasir zooparklar səviyyəsində yaradılıb. Təbii ki, bu layihə postpandemiya dövründə yenidən Bakıya səfər edəcək turistlərin ən çox üz tutacaqları məkanlardan biri olacaq. Yenidənqurmadan sonra Zooloji Parkın kompleksi ziyarətçilər üçün rahat və maraqlı məkana çevrilib, ümumi ərazisi demək olar ki, iki dəfə artırılaraq 4.25 hektara çatdırılıb.

Yenidənqurma işləri zamanı ərazidə mövcud olan ağac və kolların tam qorunub saxlanmasına xüsusi diqqət yetirilib. Ümumiyyətlə, abadlaşdırılan və yaşıllıq sahəsi artırılan zooparkda daha təbii mühit yaradılıb. Digər yeniliklər və müxtəlif əyləncə obyektləri ilə yanaşı, ərazidə uşaq meydançası, lektoriya və elektron bələdçi sistemi var. Zoopark hamının, o cümlədən fiziki qüsurlu şəxslərin, bütün yaş qruplarından olan ziyarətçilərin istirahət edə və maariflənə biləcəyi məkana çevrilib. Əsaslı yenidənqurma işləri nəticəsində zooparkın sakinləri üçün daha rahat volyerlər, akvaterrarium, kontakt zooparkı, süni göl və hovuzlar, baytarlıq klinikası inşa edilib. Heyvanların saxlandığı volyerlər hər növün özünəməxsus ehtiyacları nəzərə alınaraq hazırlanıb və sahəsi kifayət qədər genişləndirilib.

Bakı Zooloji parkının yalnız görünüşü deyil, həm də məram və yanaşmasının yeni olduğu xüsusi qeyd edilməlidir. Zooparkın əsas məqsədi insanlar üçün canlı aləm, xüsusən də Azərbaycanın nadir faunası haqqında məlumat əldə edə biləcəkləri tədris, tədqiqat və konservasiya mərkəzinə çevrilməsindən ibarətdir. Bu xüsusda, Azərbaycanın "Qırmızı kitab"ına daxil olan növlərin təbii populyasiyası və reintroduksiyası baxımından, burada heyvanların artırılması üçün münbit şərait yaradılıb. Hazırda zooparkdakı heyvan növlərinin ümumi sayı 125, "Qırmızı kitab"a düşən növlərin sayı isə 22-dir.









Qeyd edək ki, zooparklar yalnız əyləncə məkanı deyil, həm də elmi-maarifçilik müəssisəsi funksiyasını yerinə yetirir. Ümumiyyətlə, zooparkın fəaliyyət istiqamətlərinə ətraf mühitin, o cümlədən nadir və nəsli kəsilməkdə olan növlərin mühafizəsi, çoxaldılması üzrə işlərin həyata keçirilməsi, heyvanların müvafiq tələblərə uyğun saxlanılması üçün şəraitin yaxşılaşdırılmasına yönəlmiş tədqiqat işlərinin aparılması, canlı aləm və biomüxtəlifliyin qorunması sahələrində insanların məlumatlandırılması daxildir.



“Biz hərbçilərimizlə haqlı olaraq fəxr edirik və fəxr edəcəyik. Onlar əsl qəhrəmandırlar. Biz bütün xalqımızla fəxr edirik. Çünki bu 44 gün ərzində göstərilən həmrəylik, göstərilən birlik bütün dünyaya Azərbaycan xalqını çox ləyaqətli və böyük xalq kimi təqdim etdi. Bizim Qələbəmizin rəmzi olan yumruq təkcə güc rəmzi deyil, bu, birlik rəmzidir”.Bu fikirləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Cəbrayılda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə səsləndirib. Dövlət başçısı bildirb ki, biz birləşdik və istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik: ”Baxın, görün, Ermənistan indi hansı bəyanatlar verir? Otuz il ərzində uydurulan mifologiyadan əsər-əlamət yoxdur. Bəs, haradadır bunların müzəffər ordusu? Haradadır yenilməz erməni əsgəri? Bizə qarşı otuz il ərzində çirkin təbliğat aparan, Azərbaycan xalqının ləyaqətini alçaltmağa çalışan artıq öz payını aldı, öz dərsini aldı”.

Dövlətimizin başçısı deyib ki, Ermənistan ordusu yoxdur. Biz onu məhv etmişik, belə dibdən-kökdən məhv etmişik: ”Onların otuz il ərzində yığdıqları bütün texnikanı darmadağın etmişik. Onun bir hissəsi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Canlı qüvvəsini məhv etmişik. Bunu Azərbaycan xalqı edib və öz üstünlüyünü göstərib”.

# “Bizim Qələbəmizin rəmzi olan yumruq təkcə güc rəmzi deyil, bu, birlik rəmzidir”



## ”Dəmir yumruq”: Xalqın birlik, güc rəmzi

Bəli, ”Dəmir yumruq” birliyi ilə haqq və ədaləti bərpa etmiş Azərbaycan xalqının birlik, güc rəmzi ilə böyük qələbə, zəfər tarixini yazdı. Azərbaycan dövlətinin qüdrəti, Müzəffər Ali Baş Komandanın dəmir yumruğunun ətrafında birləşməsi ilə bütün dünyaya gücünü göstərdi. Ermənistan bu illər ərzində BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal altında olan bütün ərazilərindən işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə etinasızlıq göstəməsinə baxmayaraq, Azərbaycan bütün dünyaya göstərdi və sübut etdi ki, o, özünün işğal altında olan torpaqlarını müstəqil şəkildə, öz gücü ilə, öz qüdrəti ilə azad etməyə qadirdir və bunu etdi!

Və noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin videokonfrans formatında keçirilən görüşdə birgə Bəyanat imzalandı. Bu bəyanatla bəyanatla işğal altında olan torpaqlarımız, o cümlədən Kəlbəcər, Ağdam və Laçının bir güllə belə atmadan qaytarılması, erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması, bütün daxili məcburi köçkün və qaçqınlarımızın öz ata-baba yurdlarına, Dağlıq Qarabağa və onun ətraf ərazilərinə qayıtması və Naxçıvan Muxtar Respublikasına quru sahəsi ilə birbaşa yolun açılması böyük tarixi hadisədir. Bu ”Dəmir yumruq”un və Azərbaycan Ordusunun gücü sayəsində baş verdi. 1 milyondan çox soydaşlarımızın torpaq, yurd həsrətinə son qoyuldu.

Bir sözlə, sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsi şanlı Azərbaycan Ordusunun Tarixi Zəfəri ilə başa çatdı və 30 ilə yaxın davam edən işğala həmişəlik son qoyuldu. Güclü Silahlı Qüvvələrimizin əsgər və zabitləri, hərbçiləri Vətənimizin ərazi bütövlüyü naminə bir yumruq kimi birləşib, qəhrəmancasına vuruşaraq Azərbaycan Ordusunun gücünü, qüdrətini bütün dünyaya bir daha nümayiş etdirdilər.

Ali Baş Komandanımız, Prezident İlham Əliyev Anım Günü ilə əlaqədar xalqa müraciəti zamanı da bildirdi ki, 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq: ”Müharibə dövründə hamımız bir şüarla yaşayırdıq - öldü var, döndü yoxdur. Azərbaycan xalqı Azərbaycan Ordusunun arxasında möhkəm dayanaraq ordumuza əlavə güc verirdi. Günahsız insanların həlak olması, şəhər və kəndlərimizin dağıdılması Azərbaycan xalqının iradəsini qıra bilmədi. Biz hər gün irəli gedirdik, hər gün qələbə qazanırdıq, hər gün yeni uğurlar haqqında məlumatlar daxil olurdu. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq”.

Ən əsası isə bütün bu uğurlar, məhz ölkə Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev cənablarının qətiyyətli addımı, mövqeyi və nəhayət yürütdüyü ”Dəmir yumruq” siyasəti dayanır.

Elə bu günlərdə Ali Baş Komandanımız, Prezident İlham Əliyev oktyabrın 3-də Bərdə və Tərtər rayonlarına səfəri çərçivəsində Suqovuşan qəsəbəsində və Talış kəndində bayrağımızı ucaltdı. Bu mühüm hadisənin çox dərin rəmzi mənası və əhəmiyyəti vardır. Çünki 30 ilə yaxın dövrdə torpaqlarımızın işğaldan azad edilməsi, üçrəngli bayrağımızın bu ərazilərdə dalğanlanması arzusu ilə yaşayan xalqımız artıq bir ildir ki, bu reallığın sevincini yaşayır. Həmçinin, dövlət başçımızın işğaldan azad edilmiş torpaqlarımıza səfərləri zamanı bayrağımızın ucaldılması mərasimi bir daha işğalçı Ermənistana və ona havadarlıq edən dövlətlərə ciddi mesajını çatdırır: Bayrağımız torpaqlarımızda daim dalğalanacaq, Qarabağımızda əbədi yaşayacağıq.

Prezidentimizin çıxışlarında, müsahibələrində, xalqa müraciətlərində dediyi kimi: ”Bu yumruq elə belə yumruq deyil, bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam”.

***RƏFİQƏ KAMALQIZI***



# Siyasi partiya rəhbərlərinin növbəti görüşü Şuşada təşkil olunub

**Oktyabrın 7-də Azərbaycanda fəaliyyət göstərən siyasi partiya rəhbərlərinin, habelə tanınmış politoloq və siyasi şərhçilərin Şuşa şəhərinə səfəri təşkil edilib.**

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin rəhbərliyi ilə baş tutmuş Şuşa səfərində ölkəmizdə fəaliyyət göstərən 43 siyasi partiyanın 55 nümayəndəsi ilə yanaşı, tanınmış politoloq və siyasi şərhçilər də təmsil olunub.

Şuşa səfəri məşhur Cıdır düzünün ziyarəti ilə başlayıb. Sonra iştirakçılar Vaqif türbəsini, Saatlı, Yuxarı və Aşağı Gövhərağa məscidlərini, Şuşa qalasını, Xan qızı Natəvanın evini, şəhərin mərkəzi meydanında Azərbaycanın mədəniyyətinin tanınmış simaları Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərini, Bülbülün ev-muzeyini, həmçinin Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalandığı ərazini ziyarət ediblər. Səfər iştirakçıları Şuşada aparılan təmir-bərpa işləri ilə də yaxından tanış olublar.











Siyasi münasibətlərdə dialoq mühitinin dəstəklənməsi bilavasitə demokratik ənənələrin inkişafına xidmət edən təcrübədir. Fərqli səpkili təşəbbüs və layihələr vasitəsilə Azərbaycan iqtidarı dialoq məfhumunun aktuallığının qorunmasını təmin edir. Siyasi proseslərdə iştirak edən tərəflər arasında işgüzar mühitin və sağlam münasibətlərin qorunması məqsədilə atılan addımlar siyasi partiya rəhbərləri tərəfindən fəal şəkildə dəstəklənir. Belə ki, ölkədə fəaliyyət göstərən siyasi partiyaların mütləq əksəriyyəti siyasi dialoq proseslərinin fəal iştirakçılarıdır. Görülən işlərin məntiqi nəticəsidir ki, iqtidar-müxalifət dialoqu artıq ölkəmizin gündəlik siyasi təcrübəsinə daxil olub və davamlı şəkildə inkişaf edir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə reallaşan siyasi dialoq çərçivəsində təşkil olunan bu cür səfərlər siyasətçilər arasında sağlam əməkdaşlıq münasibətlərinin formalaşması, eləcə də dayanaqlı dialoq ənənələrin dərinləşməsinə xidmət edir.

Xatırladaq ki, partiya rəhbərlərinin ilk belə birgə səfəri bu il martın 17-də Ağdam şəhərinə təşkil olunub.

Təşviq edilən dialoq mühiti konstruktiv əməkdaşlığı, dövlət naminə şəxsi ambisiyalardan imtina olunmasını, milli həmrəyliyi, habelə etibarlı münasibətləri tərənnüm edir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının VII qurultayında çıxışında partiyaların inkişafını ümummilli məsələ kimi qeyd edərək demişdir: "Ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz. Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin güclənməsidir. Bu gün bu siyasi dialoq aparılır. Mən bunu çox təqdir edirəm. Hesab edirəm ki, ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var".

İqtidar-müxalifət dialoqu Azərbaycan dövlətçiliyin qorunması və inkişafı üçün, eləcə də Azərbaycanın timsalında regionun dayanaqlı inkişafını təmin edən bir vasitədir. Məhz bu dialoqun vasitəsilə siyasi partiyaların fəaliyyəti üçün hüquqi və təşkilati əsaslar yaradılıb. Ölkəmizdə mövcud siyasi partiyaların sayı bilavasitə Azərbaycanda yaşanan siyasi plüralizmdən xəbər verir. Azərbaycanda demokratik münasibətlərin inkişafı naminə partiyalara hökumət tərəfindən ayrılan diqqət artır və şaxələnir.

Siyasi həmrəyliyin təcəssümü olan siyasi dialoqun ölkəmizdə mövcudluğu, eyni zamanda siyasi sabitliyi təmin edən əsas amillərdən biridir. Təqdirəlayiq haldır ki, hökumətin bu cür təşəbbüslərində alim, siyasi ekspert və şərhçilər də fəal iştirak edirlər. Bununla Azərbaycan hökuməti, əslində, müxtəlif sahələrin potensialının səfərbər olunmasını təmin edir. Belə ki, Şuşa şəhərinə təşkil olunmuş səfərdə siyasi partiya nümayəndələri ilə yanaşı, politoloq və siyasi şərhçilərin də iştirakı təsadüfi sayıla bilməz.

# Türkiyənin nüvə silahına malik olması reallığa çevrilir





**Ərdoğan tez-tez dünya sistemində dəyişən konyuktura barədə bəyanatlar səsləndirir və Türkiyənin qlobal oyunçuya çevrilməsi istiqamətində bir-birinin ardınca uğurlu addımlar atır**

Sirr deyil ki, müasir dünyamızda nüvə silahına malik olmaq əsasən, aqressiyanın qarşısını almaq və müdafiə xarakterini daha güclü etmək məqsədini daşıyır. Texniki cəhətdən götürsək, buna nail olmaq heç də çətin deyil. Bu baxımdan, son vaxtlar Türkiyənin hərbi-müdafiə sənayesinin güclənməsi fonunda nüvə silahı əldə etmək şanslarının da yüksək olduğunu düşünmək olar.




Misal üçün, Türkiyənin ixtisaslaşmış texnoloji araşdırma mərkəzləri fəaliyyət göstərir. Elmi və kadr potensialı da nüvə proqramını realizə etməyə kifayət qədər imkan verir. Belə ki, bunun təməli olaraq İstanbulda fəaliyyət göstərən "CANEM" elmi-araşdırma institutunu göstərmək olar. Bu mərkəzdə hazırkı gündə gücü 1 MBt. olan nüvə reaktoru işləyir. 1979-cu ildə İstanbul texniki universiteti yanında ITU TIRGA Mark-II elmi-araşdırma reaktoru açılıb.

**Türkiyə yaxın 10, maksimum 20 ilə nüvə silahına sahib ola bilər - Pakistan nüvə texnologiyası təqdim edir**

2005-ci ildə isə Ankarada "SANEM" təhsil mərkəzi fəaliyyətə başlayıb və orada kifayət qədər güclü elektron sürətləndiricisi və protonları uğurla fəaliyyət göstərir.



Bundan əlavə, Ankara istədiyi zaman Pakistandan nüvə texnologiyalarını əldə edə bilər. Çünki bu ölkə yeganə müsəlman dövlətidir nüvə silahına malik olması ilə yanaşı, həm də Türkiyənin müttəfiqidir. Ekspertlər proqnozlaşdırırlar ki, Türkiyə yaxın 10, maksimum 20 ilə nüvə silahına sahib ola bilər. Ərdoğan tez-tez dünya sistemində dəyişən konyuktura barədə bəyanatlar səsləndirir və Türkiyənin qlobal oyunçuya çevrilməsi istiqamətində bir-birinin ardınca uğurlu addımlar atır.

Bu arada, BMT-nin bioloji silahlar üzrə sabiq komissiya üzvü İqor Nikulin bəyan edib ki, nüvə silahının yayılmaması haqqında razılaşma Türkiyəni müəyyən vaxta qədər saxlaya bilər, amma bu razılaşma heç də Ankaranı saxlamağa mane ola bilməz.

**Maksimal uzaqlıq məsafəsi 2500 km olan ortamənzilli J-600T Yıldırım IV ballistik raketin hazırlanması prosesi aparılır**

Artıq Türkiyənin nüvə silahını əldə etməsi üçün vasitələri var. Eyni zamanda, maksimal uzaqlıq məsafəsi 2500 km olan ortamənzilli J-600T Yıldırım IV ballistik raketin hazırlanması prosesi aparılır.

Beləliklə, Türkiyənin nüvə klubuna daxil olması yönündə həm ixtisaslaşmış kadrlarının, beyin mərkəzlərinin, eləcə də xammalının və hərbi potensialın olduğunu artıq deyə bilərik. Onu da qeyd etmək yerinə düşərdi ki, nüvə silahının əldə edilməsində Türkiyə üçün əhəmiyyəti olan, həm də onun kosmik klasterinin yaradılmasına imkan yaratmasıdır. Məhz bu vasitə ilə Türkiyə kosmik dövlətə çevrilə bilmək imkanını qazanır.

***Rövşən RƏSULOV***



## Türkiyə İranla sərhədlərini bağladı

Türkiyə İran yük maşınları üçün özünün bütün sərhəddəki bütün nəzarət-buraxılış məntəqələrini bağlayıb. SİA xəbər verir ki, bu haqda Türkiyədəki İranla ticarətin inkişafı Assosiasiyasının rəhbəri Özcan Alaş RİA Novosti-yə bildirib. Onun sözlərinə görə, bu qərar Türkiyə TIR-larının İrana keçidinə qadağanın qoyulmasına cavab olaraq verilib. "İranla Türkiyə arasında ticarət dövriyyəsi İranla Azərbaycan sərhədindəki gərgin situasiyaya görə tam dayandırılıb",- Özcan Alaş deyib.

Xatırladaq ki, İran bir neçə gün əvvəl Azərbaycan sərhədləri yaxınlığında genişmiqyaslı təlimlər keçirib. Tehran Azərbaycanı "İsraili regiona gətirməkdə" ittiham edərək Bakıya qarşı açıq düşmənçilik fəaliyyəti həyata keçirir. İranın keçirdiyi təlimlərin ardınca Naxçıvanda növbəti Türkiyə-Azərbaycan hərbi təlimləri başlayıb.

# Rusiya nəşri: ”Azərbaycan işğal illərində daşı daş üstündə qalmamış ərazilərini bərpa edir”

”Otuz il Qarabağsız: Azərbaycan xalqı müharibə yaralarını sağaldır”. Rusiyanın NEWS.ru internet nəşrinin müxbiri İqor Serebryannının məqaləsi belə adlanır. Müəllif bu məqalədə Qarabağa səfəri barədə təəssüratlarını bölüşür. AZƏRTAC həmin məqaləni bəzi ixtisarlarla təqdim edir.

X X X

Azərbaycan işğal illərində daşı daş üstündə qalmamış ərazilərini bərpa edir. Bir il bundan əvvəl ölkənin tərkibinə qaytarılmış Azərbaycan ərazilərinin harada başlamasını anlamaq üçün uzun müddət xəritəni öyrənməyə ehtiyac yoxdur. Yaxşısı budur, özünüz Qarabağa gəlin. Dağılmış yaşayış məntəqələri, vurulmuş, lakin nədənsə Bakıdakı Hərbi Qənimətlər parkına aparılmamış tank - bütün bunlar Bakıdan Şuşaya gedən yolda qarşınıza çıxacaq.




”Sərhəd” bildirən torpaq səngərlərə çatmağa bir neçə kilometr qalmış uzun illər boyu erməni silahlı qüvvələrinin nəzarəti altında olmuş torpaqları asanlıqla tanımaq olar. Kiçik bir detal çox şeydən xəbər verir: avtomobil yolunda nişanlama birdən-birə qurtarır. Əslində ərazilərin nəzarət altında olması həmin ərazilərə qayğı göstərilməsi demək deyil: Qarabağ ətrafındakı ərazilərin qondarma qurum tərəfindən zəbt edildiyi 30 il ərzində burada heç bir quruculuq işi aparılmayıb. Evlər tikilməyib, torpaqlar becərilməyib, üzümlüklər quruyub, qəbiristanlıqları ot basıb.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının mətbuat katibi Konstantin Pominov öz müşahidələrini bölüşür, dağıdılmış məscidlər və məbədlər barədə danışır. Yol nişanının qurtardığı yerdən az sonra ətrafda Azərbaycan dilində ”Ehtiyatlı olun: minalar” sözləri yazılmış xəbərdarlıq nişanları görünür.

Dağıdılmış, uçulmuş xarabalıqlardan sonra qarşıda supermüasir üslubda tikilmiş, neon lampaları ilə işıqlandırılan bina görünür. Əvvəlcə adama elə gəlir ki, bu, xəyaldır, yeni tikili sanki naməlum bir məkandan gətirilib. Füzuli beynəlxalq aeroportunun terminalının konturları görünür. Bu, cansıxıcı, kimsəsiz peyzaj arasında bir ilğım kimi təsir bağışlayır. Terminalda tikinti hələ davam edir, lakin uçma-enmə zolağı tamamilə yararlı vəziyyətdədir. Aeroport artıq üç reysi qəbul edib - bir yük təyyarəsi və iki sərnişin təyyarəsi.

İnşaatçılar NEWS.ru nəşrinin müxbirlərinə söylədilər ki, burada tikinti işləri 9 ay bundan əvvəl başlayıb. Tamamilə boş bir yerdə bütün infrastrukturu ilə bərabər mürəkkəb obyektin yaradılması sürəti onu göstərir ki, Azərbaycanda işğaldan azad edilmiş ərazilərlə ölkənin qalan hissəsi arasında əlaqə yaradılmasına böyük əhəmiyyət verilir. Füzuli aeroportu ilə bağlı, söhbət həm də xarici aləmlə əlaqələrdən gedir, çünki bu aeroport Qarabağın səma qapılarıdır.

Gələcək dövr barədə bu qısa haşiyədən sonra yol yenə indiki dövrə (daha dəqiq desək yaxın keçmişə) qayıdır. Uzaqdan baxanda Füzulinin və Şuşanın xarabalıqları Qədim Romanın xarabalıqlarını xatırladır. Bu xarabalıqlar hələ, necə deyərlər, soyumayıb - evlərin, məktəblərin, məbədlərin yaxınlığında döyüş əməliyyatları gedərkən müharibə nifrəti buradakı tikililərin canına hopub.

Ayrı-ayrı binaların məhv edilməsini bəlkə də hərbi zərurət kimi bir növ izah etmək olar, amma mədəniyyət abidələrinə münasibətdə törədilmiş vandalizmə azərbaycanlılar əsla haqq qazandıra bilmədilər. Ermənilər Azərbaycanın böyük opera müğənnisi, SSRİ Xalq artisti Bülbülün Şuşadakı doğma evinin həyətində onun büstünü avtomat silahlardan atəşə tutublar. İndi həmin zədələnmiş büstün yanında yeni büst qoyulub. Azərbaycanlılar Şuşaya qayıdandan sonra hazırlanmış bu yeni büst Bülbülün ev-muzeyini ziyarət edənlərə ermənilər tərəfindən törədilmiş vəhşi hərəkətləri xatırladır.

İndi Şuşada yerli sakinləri barmaqla saymaq olar. Şəhərin əsas əhalisi inşaatçılar, hərbçilər, bir də artıq fəaliyyətə başlamış müəssisələrin - mehmanxananın və qoruğun azsaylı işçiləridir. Əslən Şuşadan olanların oraya qayıtmağa hələ sadəcə yerləri yoxdur. Onların əksəriyyətinin qayıtmasına əsas yoxdur, çünki burada iş yerləri yoxdur.

Əlli iki yaşlı Yusif Mirzəyev 1991-ci ilin sentyabr ayında tərk edib getdiyi doğma evini görmək üçün bu il may ayında Şuşada tikinti fəhləsi kimi işə başlayıb. Mühəndis təhsili almış Yusif şəhərdə başqa obyektlər tikir, çünki özünün ikimərtəbəli evini bərpa etmək üçün hələ qüvvəsi və vəsaiti yoxdur. Yusif hər gün buraya gəlir və ümid edir ki, gələn il yayda ailəsini Bakıdan buraya gətirə biləcək.

Yusif deyir: ”Bütün bu müddətdə mənim evimdə bir erməni stomatoloq yaşayıb, burada onun alətlərini tapmışam. Lakin o, burada ”qonaq qaldığı” illər ərzində hətta divar kağızlarını da dəyişməyib - 1977-ci ildə yapışdırılmış divar kağızları qalıb. Hər yerdə belədir. Onlardan soruşasan: əgər siz bu torpağı özünüzünkü hesab edirsinizsə, onun uğrunda döyüşürsünüzsə, onda nəyə görə burada nə isə qurub yaratmaq üçün əlinizi əlinizə vurmamısınız?”

Azərbaycan hökuməti doğma sahibinə qaytarılmış Qarabağın bərpa edilməsi, onun sosial və iqtisadi infrastrukturunun sıfırdan başlayaraq yaradılması üçün külli məbləğdə vəsait ayırır. Lakin Bakıda başa düşürlər ki, maliyyə vəsaiti çox olsa da, təkcə bununla iş bitmir. İkinci Qarabağ müharibəsinin başlanmasının birinci ildönümü azərbaycanlılar üçün hamının sevinc göz yaşları ilə qeyd etdiyi bayram oldu. Heydər Əliyev Fondu bu münaqişə dövründə həlak olmuş azərbaycanlıların sayına görə 3 min hava fanarının buraxılmasını təşkil etdi. Külək bu fanarları Xəzər dənizi tərəfə aparır, sahildən baxanda bu sayrışan fanarları ”Qarabağ bürcü” adlandırmaq olardı.

Ermənilərlə azərbaycanlıların qarşılıqlı münasibətləri tarixində ən qaranlıq səhifələrdən birini qatlaya biləcəklərinə ümid var. Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan ilə münasibətlərin normallaşmasına hazır olmasını və Bakının beynəlxalq hüquq və ərazi bütövlüyü prinsiplərinə riayət edilməsi əsasında ikitərəfli kommunikasiyaları bərpa etmək niyyətini bəyan edib.

Hətta müharibə nəticəsində doğma evini tərk etməyə məcbur qalmış Yusif Mirzəyev də qisas almaq arzusunda deyil. Onu daha çox narahat edən öz ata-baba yurdunu bərpa etmək zərurətidir və o əmindir ki, buna nail olacaq. Özü edə bilməsə övladları bunu edəcək.

# Nikolay Zamikula: “Azərbaycan Cənubi Qafqazın lideridir”




**Azərbaycana səfər çərçivəsində mənə işğaldan azad edilmiş rayonlara getmək nəsib olub. Biz Şuşada, Cəbrayılda və Ağdamda olduq. Bu səfərlə bağlı təəssüratlarım həqiqətən ikili xarakter daşıyır. Bir tərəfdən işğaldan sonra qalmış dağıntılar adamı dəhşətə gətirir. Lakin azad edilmiş ərazilərin bərpası prosesi öz sürətinə görə heyrət doğurur. Səkkiz ay ərzində Füzulidə müasir aeroport tikintisi faktiki olaraq başa çatıb.**

Ukrayna Milli Strateji Araşdırmalar İnstitutunun eksperti Nikolay Zamikula erməni işğalından azad edilmiş ərazilərə səfərdən aldığı təəssüratları AZƏRTAC-a müsahibəsində bölüşüb. O vurğulayıb ki, Azərbaycanın mədəniyyət paytaxtı sayılan Şuşada artıq müasir otellər istifadəyə verilib.

Nikolay Zamikula deyib: ”Şuşaya yeni yol çəkilişi başa çatmaq üzrədir. Ağdamın yenidən qurulması üçün plan hazırlanıb, lakin bu planın həyata keçirilməsi üçün çox vaxt lazım gələcək. İlk növbədə ona görə ki, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin mütəxəssisləri mina təhlükəsinə qarşı mübarizəni davam etdirirlər. Bu işin uğurla başa çatacağına əsla şübhə etmirəm. Azərbaycanın yeni milli layihəyə - bərpa layihəsinə yanaşması ən yüksək qiymətə layiqdir. Ukrayna da Azərbaycanın bu təcrübəsini öyrənməli, ondan nümunə götürməlidir. Bu, Bakının hərbi uğurlarının tədqiqi ilə müqayisədə heç də az əhəmiyyətli məsələ deyil”.

Onun sözlərinə görə, Birinci Qarabağ müharibəsində məğlubiyyət milli faciə kimi qəbul edilmişdi və müvəqqəti itirilmiş torpaqları qaytarmağın zəruri olmasına heç kəs şübhə etmirdi. Ekspert vurğulayıb: ”Mənim müşahidələrimə görə Azərbaycan tərəfi bu münaqişəni dini və ya etnik xarakterli müşahidə hesab etmirdi. Azərbaycan yalnız öz dövlətinin ərazi bütövlüyünün bərpa olunmasını və 1990-cı illərin əvvəlində öz evlərini tərk etməyə məcbur olmuş yüz minlərlə qaçqının hüquqlarını təmin etmək istəyirdi. İkinci Qarabağ müharibəsində Qələbəyə görə eyforiya hələ də hiss edilir. Küçələrdə tez-tez rast gələn ”Qarabağ Azərbaycandır!” şüarı yazılmış plakatlar və reklam məhsulları, 2021-ci ilin baharında açılmış Hərbi Qənimətlər Parkı buna sübutdur. Lakin bunu döyüşkənlik və ya təcavüzkarlıq hesab etmək lazım deyil. Əksinə, illər boyu davam etmiş münaqişənin başa çatmasına insanlar sevinir, bu, gələcəkdə dinc həyata ümid verir. Bu qələbə naminə verilmiş qurbanları heç kəs unutmur. Binalarda və şəxsi avtomobillərdə şəhidlərin portretləri işğal altında olan ərazilərin azad edilməsi uğrunda həlak olanların xatirəsinə müstəsna hörmətə dəlalət edir”.

Nikolay Zamikula sözünə davam edərək bildirib ki, Azərbaycan çox yaxşı təsir bağışlayır. Bu dövlət öz potensialına görə Cənubi Qafqazın lideridir və onun inkişaf sürəti bu həqiqəti təsdiq edir. Bakıya gələnlər elə ilk saatdan etibarən, Heydər Əliyev Beynəlxalq Aeroportuna sadəcə nəzər salmaqla bu ölkənin modernləşmə və öz mövqelərini möhkəmlətmə yolunda inamla irəliləməsini təsəvvür edə bilər. Azərbaycan paytaxtının siması çox rəngarəngdir. Digər tərəfdən, Azərbaycanda tarixi irsi unutmurlar. İçərişəhər, Şirvanşahlar saray kompleksi və Qız qalası buna parlaq sübutdur. Şəhərin köhnə və yeni hissələri çox uğurlu simbioz təşkil edir. Şəhər ərazisində kütləvi tikinti işləri Bakının daha bir fərqləndirici cəhətidir: yeni tikintilər paytaxtın tarixi məkanları üçün heç bir təhlükə doğurmur.

Nikolay Zamikula vurğulayıb: ”Azərbaycan vətəndaşlarının Ukraynaya çox səmimi münasibətini xüsusi qeyd etmək istərdim. Bu, hər addımda hiss olunurdu. Küçədə, nəqliyyatda, mağazalarda, muzeylərdə və kafelərdə mənim Ukraynadan olduğumu bilənlər öz müsbət emosiyalarını gizlətmirdi. Azərbaycanda bizim ölkəni əsil müttəfiq və dost hesab edirlər. İkinci Qarabağ müharibəsi zamanı Ukrayna Bakını dəstəkləyib. Bakı sakinləri ilə söhbətlər zamanı aşkar hiss olunurdu ki, onların Ukraynaya dost münasibəti, ukraynalıların öz problemlərini tezliklə nizamlaması arzuları ürəkdən gələn duyğulardır”.

# Əlcəzairli jurnalist: Azərbaycanın 44 günlük müharibədə Qələbəsi xalqın Vətən sevgisinin örnəyidir



Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi uğrunda Qələbə ilə başa çatdırdığı 44 günlük müharibə xalqın Vətən sevgisinin örnəyidir. Bu fikri AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində Əlcəzair beynəlxalq media şəbəkəsinin direktoru, Ərəb Jurnalistlər Federasiyasının Əlcəzair şöbəsinin rəhbəri Əbdülqədir Xəlil söyləyib.

Əlcəzairli jurnalist deyib: ”Azərbaycan ərazilərinin Ermənistanın işğalından azad edilməsinin ildönümündə tarixi Qələbənin əhəmiyyətini diqqətə çatdırmaq istərdim. Əvvələ qeyd edim ki, şanlı Zəfər Azərbaycan Prezidenti İlham Əliyevin dövlət başçısı kimi müdrik siyasətinin və sərkərdəlik məharətinin nəticəsidir. Digər tərəfdən, Prezidentlə xalqı arasında həmrəylik, insanların öz Liderinə olan böyük etimadı Qələbəni şərtləndirən amillərdir. Müharibə günlərində dost Azərbaycan xalqının ədalətli mübarizəsini dəstəkləmişik. Rəhbərlik etdiyim beynəlxalq media şəbəkəsi və ”Əl Hərir” portalı çoxlu sayda analitik məqalə, eyni zamanda müharibənin gedişi barədə AZƏRTAC-ın paylaşdığı məlumatları yayımlayıb. Biz gündəlik olaraq rəşadətli Azərbaycan Ordusunun cəbhədəki hər bir qələbəsini diqqətlə izləyirdik və din qardaşlarımızın itkilərinin az olması üçün dualar edirdik.

Nəhayət, qədim Şuşanın azad edilməsi kimi xoş xəbərdən sonra Zəfər müjdəsini aldıq. Bu, Vətənə sədaqət, tarixdə əbədi qalacaq bir Qələbənin sevinci idi. Azərbaycan bir dövlət kimi öz gücünü bütün dünyaya göstərdi və Ermənistanın qəsb etdiyi torpaqları azad edərək, BMT Təhlükəsizlik Şurasının qətnamələrini, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatların qərar və qətnamələrini yerinə yetirdi. Beləliklə, 30 ilə yaxın müddətdən sonra haqq-ədalət öz yerini tapdı”.

Ə.Xəlil vurğulayıb ki, indi Qarabağ torpağı azaddır, Azərbaycanın bu bölgəsinin sakinləri rahat nəfəs alır və Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işlərindən sonra öz doğma yurdlarına qayıtmağa hazırlaşırlar. ”Biz bu prosesi də diqqətlə izləyirik. Azərbaycanın dövlət başçısının azad olunmuş ərazilərə səfərləri zamanı açılış və təməlqoyma mərasimlərini, habelə onun çıxışlarını mütəmadi olaraq yayırıq. Əminəm ki, ərazilərin bərpası tezliklə başa çatacaq, Ağdam, Şuşa, Cəbrayıl, Kəlbəcər və digər rayonlar öz əvvəlki görkəminə qayıdacaq, yaxın gələcəkdə Qarabağ torpağı hərb səhnəsi deyil, bütün dünyadan turistləri cəlb edən gözəl məkana çevriləcək. Dost Azərbaycan xalqına qoşuluram və təkrar edirəm: ”Qarabağ Azərbaycandır!”.

# İslam: fanatizm, yoxsa vəhdət?

**Prezident İlham Əliyev: "Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir."**

İslam dini səmavi dinlər arasında ən gənci olsa da, onun nəinki müsəlmanlar, bütövlükdə bəşər övladı üçün əhəmiyyətli inanc mənbəyi olduğunu söyləyə bilərik.

Müqəddəs Qurandakı ayələr vasitəsi ilə İlahi kəlamlarının müəyyən etdiyi meyarlar və dəyərlər bütün dünya xalqlarının, millətlərinin bir araya gələrək, məhz İslam dini altında birləşməsini ehtiva etməkdədir. Əbəs deyil ki, məhz islam dinində irəli sürülən kəlamlar həm də milli-irqi ayrıseçkiliyin Allah qatında qəbuledilməz olduğunu vurğulayır. İslam dini bütün dövrlərin, bütün sivilizasiyaların dinidir və ondan əvvəl gəlmiş və zaman-zaman assimilyasiyaya uğramış əvvəlki dinləri də bütövləşmək dəvəti ilə tamamlayır.

## İslam dininin müəyyən bəşəri modelləri mövcuddur

Əsrlərdən bəri müxtəlif xalqlar, millətlər arasında davam etmiş müharibələr, işğallar və iğtişaşlar səbəbindən islam dini də ondan əvvəl gəlmiş dinlər kimi bir sıra hallarda ya təhrif olunmuş, ya da ayrı-ayrı məqsədlərə yönəlmiş şəkildə təbliğ edilərək şəxslərin mənfəətlər əldəetmə maraqlarına hesablanmışdır. Əlbəttə ki, belə bir arzuedilməz mövcudluq nəticə etibarı ilə bəşəriyyət üçün göndərilmiş sonuncu səmavi dinin çoxsaylı məzhəblərə, qollara ayrılmasına şərait yaratmışdır.

Lakin etiraf edək ki, islam dininin bütövlükdə qorunub-saxlanılmasında, paralel olaraq həm dünyəvi, həm də ilahi tələblərə cavab verməsi gerçəkliyində fəaliyyət göstərən, çox olmasa da, müəyyən bəşəri modelləri mövcuddur. Düzdür, bu modellər bir-birindən tamamilə fərqlənir, lakin ümumilikdə onlar islamın, onun tarixi, mənəvi və s. ənənələrinin güvənliyinin saxlanılmasına xidmət edirlər. Həmin modellərə nümunə olaraq qardaş Türkiyəni, Pakistanı, Səudiyyə Ərəbistanını göstərə bilərik. Bu ölkələrin siyasi idarəçilik formaları fərqli olsa da, dini inanc və vəhdətlik prizmasından yanaşma tərzləri demək olar ki, mütənasibliyi nümayiş etdirir. Türkiyədə din dövlətdən ayrıdır, amma dövlətin öz tarixi ənənələrinə söykənərək, hətta siyasi məsələlərdə belə müəyyən addımların paralel olaraq atması islamın həm də dünyəvi olaylar qarşısındakı rolunu artırır. O cümlədən, Türkiyədə müxtəlif din mərkəzləri, dini icmalar rahatlıqla fəaliyyətlərini davam etdirirlər. Əbəs deyil ki, bu gün dünyada islamın Türkiyə modeli öz xüsusiyyətləri ilə seçilməkdədir.

Səudiyyə Ərəbistanı isə, məlum olduğu kimi, birbaşa islam qanunları ilə idarə olunur və nə qədər maraqlı görünsə də, bu ölkənin islamın paytaxtı, yaranışı mərkəzi olmasına rəğmən orada da digər müxtəlif dini konfessiyaları öz fəaliyyətlərini qurmaqdadırlar. Düzdür, bir sıra hallarda, yəni məzhəbçilik məsələlərində müəyyən dərəcəli fikir ayrılıqları olsa da, həmin fikir ayrılıqları normal qaydada - din bilicilərinin, alimlərinin müzakirələri, diskussiyaları ilə yoluna qoyulurlar. Bütövlükdə isə islamın Səudiyyə Ərəbistanı modeli həm müəyyən sərtliyi, həm də nəzərəçarpacaq yumşaqlığı ilə seçilməkdədir. Səudiyyə Ərəbistanında dini dözümlülüyün mövcud olduğunu söyləmək mümkündür.

Pakistan İslam Respublikası barədə də eyni fikirləri bölüşə bilərik. Bu ölkədə də çoxsaylı ayrı-ayrı dini konfessiyalar, məzhəblər mövcuddur. Lakin heç bir halda bu yöndə qarşıdurmalar baş vermir. Həmçinin, dövlətlə din bir araya gələrək artıq uzun illərdir ki, respublikanın inkişafında mühüm rollarını oynayırlar.

## İranın zərərli "islam modeli" qığılcımlarının təhlükəsi

Ancaq elə "modellər" də var ki, onlar heç bir halda islam dininin vəhdət, birlik, qeyri ayrı-seçkilik çağırışlarına, İlahi dəvətlərinə cavab vermirlər - əksinə, fundamental müsəlmançılığın fanatizm yolu ilə parçalanmasına gətirib çıxarırlar. Belə bir "model" qonşu İran İslam Respublikasında tətbiq edilməkdədir. Ancaq İranın həm də Azərbaycanla qonşu olduğunu da qeyd etsək, haqqında bəhs edəcəyimiz zərərli "model" qığılcımlarının nə qədər təhlükəli olduğu qənaətinə gələrik.

Bildiyimiz kimi, özünü İslam Respublikası kimi təqdim edən İranda əsas dini-məzhəbi ağırlıq şiəlik üzərində dayanır. Yəni bu gün İran idarəçiliyinin dövlət strukturlarından tutmuş parlamentinə qədər və s. strukturlarına kimi əsas çəki şiə məzhəbi daşıyanlara aiddir. Yalnız cüzi şəkildə sünni və s. məzhəb nümayəndələri, habelə digər din daşıyıcıları mühüm vəzifələrdə yer almaqdadırlar. Lakin təəssüflə qeyd edə bilərik ki, İranda şiəlik məzhəbi, əslində, sui-istifadə mənbəyinə çevrilib və heç bir halda Allahın, Peyğəmbərin, onun ailəsinin getdiyi yolu tərənnüm etdirmir. Əksinə, İranda islam və şiəlik pərdəsi altında əxlaqsızlıq, dini-mənəvi dəyərlərə xas olmayan ifratçılıq barədə faktlar bu və ya digər şəkildə yayılmaqdadır. Təkcə sosial şəbəkələrdə, media aləmində belə faktlar minlərlədir.

## İran həmsərhəd ərazilərimizi işğalçı Ermənistanla birgə narkotranzit kimi istifadə edib



**Bəhruz QULİYEV,**
**"Səs" qəzetinin baş redaktoru**

Və nə qədər maraqlı görünsə də, İranda əmmamə və əba geyinib, özlərini şiəliyin tədris mərkəzi olan Qum şəhərinin "üləmaları", "ayətullahları" adlandıran şəxslərin övladları istər İranın özündə gizli şəkildə, istərsə də Qərbi Avropa ölkələrində dinin inkar etdiyi, haram buyurduğu əməllərə əl atırlar, içki, gecə həyatı, narkomaniya, pozğunluq kimi yaşam tərzlərinə qapılırlar. Maraqlıdır ki, bu barədə onların "aşırı dindar" valideynləri xəbərdar olsalar da, heç bir tərbiyəvi tənbehlərə getmirlər. Əksinə, İranda sadə xalqdan, dini ocaqlardan, müqəddəs məkanlardan, ziyarətgahlardan qazandıqları pul-paralarını sevimli avropalı övladlarına yollayıb, necə deyərlər, kef çəkmələrinə daha geniş şərait yaradırlar. Təbii ki, sadə iranlılar bu məsələlərdən halidirlər, amma ifadə edərkən, onları şallaq, həbs, hətta edam qərarları gözləyə bilər. Üstəlik, əldə edilən vəsaitlərin narkotik tranzitlərinə də sərf edildiyini sübut edən yüzlərlə faklar mövcuddur. Təkcə 30 illik işğal altında qalmış İranla həmsərhəd ərazilərimizin işğalçı Ermənistanla birgə narkotranzit kimi istifadə olunmasını qeyd edərsək, artıq bu məsələnin nə qədər islama, dinə zidd olduğunu vurğulaya bilərik.

O cümlədən, İranda aşırı radikal şiəçilik vasitəsinin ayaq açıb-yürüməsi təəssüf ki, zaman-zaman bizim ölkənin - Azərbaycanın da sərhədlərini aşa bilib. Biz, elə də uzağa getməyərək, 2015-ci ildə baş vermiş radikal şiə qruplaşmalarının Nardaranda törətdikləri qanlı iğtişaşları göstərə bilərik. Dini fanatizm və dağıdıcılıq çayırı kimi kök atan bu təhlükəli faktor eyni zamanda, milli zəmində də özünü göstərir, soyunu, kökünü unudan azərbaycanlılar zəhərli təbliğatlara uymaqla öz milli kimliklərindən belə imtina edirlər. Daha dəqiq desək, şovinizmlə yoğrulan dini fanatizm halları artıq sözdə dini məcradan aşkar siyasi və iyrənc məcraya doğru uzanır, kirli maraqların realizəsinə hesablanır.



Bu gün İran İslam Respublikası adlandırılan aşırı teokratiya idarəçiliyi öz cəmiyyətini dəmir çərçivə, yaxud barmaqlıqlar arasında saxlaması ilə yanaşı, həm də onun qonşu ölkələrə, xüsusilə də müstəqil, demokratik, multikultural və ən əsası, tolerantlıq etalonu kimi qiymətləndirilən Azərbaycan Respublikasına sirayət etməsinə cəhdlər göstərir. Biz bunu son vaxtlar məhz həmin maraqların yenidən baş qaldırması fonunda müşahidə etməli olduq.

Azərbaycan hüquqi və demokratik ölkə olması ilə yanaşı, həm də müsəlman ölkə kimi öz ayrıca, özünəməxsus islam modeli ilə dünyaya örnək göstərir. Dini fanatizmi deyil, vəhdət prinsiplərini qoruyub-inkişaf etdirən Azərbaycanda nəinki bu dinin ayrı-ayrı məzhəb nümayəndələri eyni məscidlərdə çiyin-çiyinə namaz və ibadətlərini həyata keçirirlər, həm də digər dinlərin nümayəndələri ilə qardaşlıq və barış içində yaşayırlar.

Bu gün Azərbaycana nə İran modeli, nə digər ölkələrin modeli lazım deyil. Eləcə də, Azərbaycana kənardan dini "təsir", yaxud hər hansı göstərişə" də entiyac yoxdur və olmayıb, çünki Azərbaycanın öz dəyişilməz, möhkəm dayaqlara söykənən yanaşması var - bu, vəhdətlik və tolerantlıqdır. Azərbaycan xalqı və dövləti üçün əsas meyar multikulturalizm, tolerantlıq, bütün dinlərə hörmətlə yanaşma gerçəkliyidir və bu yanaşma ölkəmizdə tarixlər boyu, əsrlərdir ki, davam edir, bundan sonra da edəcək.

## Azərbaycan çoxəsrlik tolerantlıq ənənələrinə, dövlət-din münasibətləri modelinə malik olan, fərqli sivilizasiyaların qovşağında yerləşən bir diyardır

Prezident İlham Əliyev öz çıxış və nitqlərində ölkəmizdəki dini-milli və etnik mühiti dəyərləndirərkən vurğulayıb ki, Azərbaycan zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə, nümunəvi dövlət-din münasibətləri modelinə malik olan və fərqli sivilizasiyaların qovşağında yerləşən bir diyardır. "Ayrı-ayrı etiqad və inanclara malik etnosların yüz illərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik mədəni müxtəlifliyin günümüzədək qorunub- saxlanmasında bizim xalqımıza xas olan humanizm və multikulturalist dəyərlərin müstəsna rolu vardır. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir", deyə dövlət başçımız vurğulayıb.

Artıq göründüyü kimi, Azərbaycan dövləti bütün sahələrdə və bütün idarəçilik mexanizmlərində öz uğurlu tolerantlıq və multikultural modelini tətbiq edir və əbəs deyil ki, dünyanın bir çox aparıcı ölkələri bu modelə heyran qaldıqlarını gizlətmirlər. Çünki nümunə götürüləsi çox amillər vardır.

Azərbaycanda bütün xalqlar, millətlər, dinlər və məzhəblər bir araya gələrək 44 günlük Vətən müharibəsində sarsılmaz vəhdətçiliyi, birliyi bu modellə sübuta yetirdilər. Ən əsası isə, əgər bu vəhdəti pozmağa çalışan hər hansı xarici qüvvələr yenidən meydana çıxmağa cəhdlər göstərsələr, onlar bir daha yumruq kimi birləşərək həmin zərərli təsirləri dərhal aradan qaldıracaqlar.

Biz sözlə, İslam dini dünyəvi dindir, eyni zamanda, Azərbaycandan dünyaya təbliğ edilən sülh və əmin-amanlıq dinidir, bu, Azərbaycan modelidir!

# İşğaldan azad olunan ərazilərdə minaların təmizlənməsinin zamana ehtiyacı var

## Prezident İlham Əliyev: "Minalanmış sahələrin ermənilər tərəfindən bizə verilmiş az miqdarda xəritələrinin dəqiqliyi təqribən 25 faizdir"

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycanın döyüş meydanında qazandığı Zəfər bütün dünyaya yayıldı və ölkəmizin qısa bir zamandakı hərbi əməliyyatı, taktikası dünya ölkələri tərəfindən böyük maraqla qarşılandı. Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə cəbhədə Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr





vurmaqla, onları torpaqlarımızdan "iti qovan kimi" qovaraq məğlub etməsi 30 ilə yaxın işğal altında olan tarixi torpaqlarımızın azad olunması ilə nəticələndi. Artıq Azərbaycan işğaldan azad olunan torpaqların abadlıq-quruculuq işlərinə başlayıb. Həyata keçirilən layihələr bu ərazilərin yaxın vaxtlarda dirçəlməsinə səbəb olacaq. Azərbaycan Prezidenti İlham Əliyev müsahibələrini birində bildirdiyi kimi, "Biz çox böyük sürət götürmüşük və əsas məqsədimiz keçmiş qaçqınları və köçkünləri tezliklə öz yurdlarına qaytarmaqdır, onlar hədsiz çox gözləyiblər. Mən bu barədə demişəm, bir daha demək istəyirəm ki, bizim əsas maneəmiz, əsas rəqibimiz zamandır".

### "DAĞINTILARIN MİQYASI ELƏDİR Kİ, İNSAN, SADƏCƏ, MAT QALIR"

Təbii ki, yaxın zamanda bunun reallaşması bir qədər çətindir. Belə ki, erməni təcavüzkarları işğal altında olan ərazilərimizi darmadağın edərək xarabazarlıqlara çeviriblər. "Mən Bakıdan Füzuliyə, Cəbrayıla, Zəngilana, Qubadlıya, Laçına qədər və digər istiqamətdə Kəlbəcər və Laçın tərəfdən yüzlərlə kilometr yol qət etmişəm, orada hər şey dağıdılıb", - deyən Prezident qeyd edib ki, dağıntıların miqyası elədir ki, insan, sadəcə, mat qalır: "Axı, bu ərazi sahəsinə görə Livana bərabərdir. Təsəvvür edin, dünyada heç də ən kiçik olmayan bir ölkənin Livanın ərazisinə bərabər ərazini tikmək, abadlaşdırmaq lazım gələcək. Bunu, sadəcə, təsəvvür etmək üçün dedim. Orada heç nə yoxdur, nə yol var, nə işıq, nə qaz, nə su. Heç nə. Tamamilə heç nə".

### MİNLƏRLƏ VƏTƏNDAŞIN, MİNATƏMİZLƏYƏNLƏRİN HƏYATI ÜÇÜN TƏHLÜKƏ

Bu gün həmin ərazilərdə genişmiqyaslı layihələr icra olunur. Şuşaya Zəfər yolu, Füzuli-Şuşa ikinci magistral avtomobil yolu çəkilir. Dini-tarixi abidələr bərpa olunur. İnfrastruktur layihələri icra olunur. Yollar, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları salınır. Əlbəttə ki, bu gün işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi də əsas məsələlər sırasındadır. Bildiyimiz kimi, Ermənistan Ağdam, Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə minaya dair xəritələrini Azərbaycana təhvil verib. Bu Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. İlk olaraq Ağdamda, daha sonra isə Füzuli və Zəngilanda basdırılmış minaların xəritələrinin Ermənistandan alınması on minlərlə vətəndaşın, o cümlədən, minatəmizləyənlərin həyatının təhlükədən xilasıdır. Minaların təmizlənməsi maliyə




itkisi ilə yanaşı, vaxt itkisinə də səbəb olur. Azərbaycan zəfər qazandıqdan sonra bu günə qədər 150-dən çox mülki şəxs və hərbçi minaya düşüb. Onlardan bəziləri həlak olub, bəziləri isə sağlamlığını itirib. Bu xəritələrin verilməsi işğaldan azad edilmiş ərazilərdə tikinti və yenidənqurma layihələrini tez bir zamanda reallaşmasına səbəb olar. Dövlət başçısı "Minalanmış sahələrin ermənilər tərəfindən bizə verilmiş az miqdarda xəritələrinin dəqiqliyi təqribən 25 faizdir" - deyə bildirib: "Minalanmış sahələrin xəritələrinin çox hissəsini isə bizə vermirlər. Ona görə bu çox çətin işdir, onu sürətlə icra etmək mümkün deyil. Nə qədər vəsaitin olsa belə, bunun üçün vaxt lazımdır". Bu gün əlbəttə ki, azad edilən ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanması və zərərsizləşdirilməsi üzrə tədbirlər davam etdirilir. Təhlükəsiz hərəkət üçün yollar minalardan təmizlənir. İşğaldan azad olunan ərazilərdə bu günədək 16000-dən çox mina və partlamamış döyüş sursatı utilizasiya edilib.

Onu da qeyd edək ki, mina partlayışları nəticəsində həyatını itirən insanların sayının artması nəticəsində Ermənistanı minalanmış ərazilərin xəritələrini verməyə məcbur etmək məqsədi ilə Azərbaycan tərəfindən dünya ictimaiyyətinə, beynəlxalq qurumlara və təşkilatlara, o cümlədən BMT-nin Baş Katibliyinə, BMT-nin İnsan Hüquqları Şurasına, Avropa Şurasına və Avropa İttifaqına müraciət ünvanlanıb. Ermənistan minalanmış sahələrin tam xəritələrini verməsə də, bu gün artıq Azərbaycan işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərini davam etdirir. Azərbaycanın dinamik inkişafı tezliklə işğaldan azad olunan ərazilərimizin bərpasına imkan verəcək və illərdir vətən həsrəti ilə yaşamış insanlar əzəli torpaqlarımıza qayıdacaqlar.

*Nəzakət ƏLƏDDİNQIZI*

# ŞOK FAKT:
## Serjikə komsomol bileti Ağdamda verilib!

Prezident İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində çıxışı zamanı Ermənistanın keçmiş Prezidenti Serj Sarkisyanın öz adını dəyişdirdiyini bildirib: "Mən ona Serjik Sarkisyan ona görə demirəm ki, onu alçaltmaq istəyirəm, ona görə ki, bu, onun əsl adı və soyadıdır. Bizim arxivlərimizdə bu məlumatlar var. Onun "metrika"sında, yəni, doğum haqqında şəhadətnaməsində, onun komsomol biletində Sarkisyan Serjik yazılıbdır. Sonra bunu edib Sarkisyan Serj. Guya "Serj", necə deyərlər, məqbul bir addır".




Azərbaycan dövlət başçısının sözügedən açıqlamasından sonra Sarkisyanın əsl adı ilə bağlı müzakirələr yenidən gündəmə gəlib. Daha sonra sosial şəbəkələrin həm Azərbaycan, həm də Ermənistan seqmentində eks-prezidentin komsomol biletinin fotosu yayılıb. Sənəddən də onun adının Serjik olduğunu görmək mümkündür.

## "Hadrut ətrafında saxlanılanlar terrorçulardır"

"Azərbaycan dövlətinin bu məsələ ilə bağlı mövqeyi aydındır. Cənab Prezident İlham Əliyev dəfələrlə bildirib ki, Hadrut ətrafında saxlanılan terrorçular hərbi əsir deyillər, yəni bunlar hərbi əməliyyatlar qurtarandan sonra təxribat törətmək üçün əsgərlərimizə qarşı silah işlədiblər və buna görə də saxlanılıblar". Bunu SİA-ya açıqlamasında politoloq, Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı deyib.



Onun sözlərinə görə, Ermənistan dövlətinin minalanmış xəritələrinin Azərbaycana verməməsi beynəlxalq hüquq normalarının pozulmasıdır: "Yeni Ermənistanın baş naziri Nikol Paşinyan Prezident İlham Əliyevlə görüşmək istədiyini və bu görüşə minalanmış ərazilərin xəritələrini aparmağa və əvəzində isə Hadrut ətrafında saxlanılan terrorçuların qaytarılmasının reallaşması mümkünsüz olan istəkdir. Çünki Hadrut ətrafında saxlanılanlar isə qanunla terrorçulardır. Bir sözlə, minalanmış ərazilərin xəritələrinin qarşılığında terrorçuların verilməsi məsələsini eyniləşdirmək olmaz. Ümumiyyətlə, minalanmış xəritələrinin verilməsi ilə bağlı məsələ dəqiqləşdirilməlidir. Yəni, doğrudan da, verdikləri xəritələr həqiqətə uyğundurmu, realdırmı, Ermənistan tərəfindən verilən həmin xəritələr tam reallığı əks etdirirmi? Çünki onların Ağdama və Cəbrayıla verdikləri minalanmış xəritələrin cəmi 25 faizi düz çıxmışdır. Yəni indi verəcəkləri nədir? Paşinyan yalandan o qovluğu qoltuğuna vurub gələcək ki, minalanmış xəritələri gətirmişəm. Əvvəlcədən xəritələr yoxlanılmalıdır. Ondan sonra isə Azərbaycan tərəfi məsələni müzakirə edə və fikrini bildirə bilər".

*Gülyana*

## "Anti-milli qüvvələrin Azərbaycan cəmiyyətində yeri yoxdur"

"Prezident İlham Əliyev Suqovuşanda nitq söyləyərkən əli Azərbaycan xalqının qanına bulaşmış, birinci Qarabağ müharibəsində Ermənistana havadarlıq edən qüvvələrin gücü ilə, o cümlədən bir zamanlar Azərbaycana rəhbərlik edən AXC-Müsavat cütlüyünün bəzi üzvlərinin xəyanəti nəticəsində Azərbaycan torpaqlarını işğal edən Serjik Sarkisyan haqqında öz fikirlərini bildirib. Serjik Sarkisyan Xocalı qatili, cinayətkar məxluqdur. Ona görə də Prezident İlham Əliyev çıxışı zamanı Serjik Sarkisyanın Azərbaycan haqqında heç bir söz deməyə haqqı olmadığını bildirib və layiq olduğu sözlərlə onu yerində oturdub. Serjik Sarkisyan Vətən müharibəsində qorxusundan qaçıb siçovul yuvasına girmişdi. İndi də həmin yuvadan bir neçə saniyəlik çıxır, ölkəmiz haqqında cəfəng fikirlər səsləndirib geri qayıdır". SİA-nın məlumatına görə, bu fikirləri Milli Məclisin deputatı Cavid Osmanov söyləyib.

Deputatın sözlərinə görə, burada maraqlı məqam ondan ibarətdir ki, Serjik Sarkisyanın doğmaları, onunla əlbir olan və bu gün də xəyanətkar missiyalarını yerinə yetirənlər, yəni li Kərimlilər, Arif Hacılılar, eyni zamanda onların "kompüter qəhrəmanları", Qənimət Zahid, Sevinc Osmanqızı, Milli Şuranın bəzi üzvləri tez-tələsik Serjik Sarkisyanı müdafiə etməyə başladılar: "Əslində bu, təəccüblü deyil, çünki həmin adamlar uzun illərdir ki Azərbaycan cəmiyyətində yer tapa bilmədikləri üçün Serjik Sarkisyanın yanında qərarlaşıblar. Ona görə də, hərəsi bir status yazaraq Serjikin müdafiəsinə qalxdılar. Bundan sonra Serjik Sarkisyan da öz doğmalarına arxayın olaraq gizləndiyi siçovul yuvasından çıxdı. Əlbəttə ki, həmin adını çəkdiklərim arasında böyük bir bağlılıq var və bu bağlılıq onların ortaq xəyanətkarlıq missiyası ilə əlaqədardır. Ümumiyyətlə, anti-milli qüvvələrin Azərbaycan cəmiyyətində yeri yoxdur, çünki xalqımız belələrini hələ uzun illər əvvəl tarixin arxivinə yollayıb".

# Zoofobiyadan necə yaxa qurtarmaq olar?



**Bəzi insanlar heyvanlardan qorxur. Bu qorxu, pişiklər, itlər və böcəklər kimi fərqli heyvanların qorxusudur. Heyvan fobiyasının bir çox səbəbi ola biləcəyi üçün bu hissin də üstünü açmaq mümkündür. Hər heyvan qorxusu zoofobiya deyil. İlan və əqrəb kimi heyvanlardan qorxmaq normaldır.**

Zoofobiyası olan insanlar, heyvanın növündən asılı olmayaraq hər cür heyvandan qorxurlar. Fobiya bir növ narahatlıq pozğun-



luğudur. Heyvan qorxusuna zoofobiya deyilir. Bu insanlar, təhlükəli hesab etdikləri vəziyyətlərdən və hadisələrdən qaçırlar.

Zoofobiya, heyvan qorxusu üçün tibbi bir termindir. Adətən gənc yaşda başlayan bu xəstəlik, hər təbəqədən və hər yaşdan insanlarda görülə bilər. Zoofobi olan insanlar müxtəlif heyvan növlərindən qorxurlar.

Adətən uşaqlıq dövründə ortaya çıxan bu xəstəlik, həyat boyu insan üçün çətinliklərə səbəb olur. Bəzi hallarda müalicə olunmayan problemlər yarana bilər. Heyvan fobiyası xəstəni ömür boyu izləyir və bunun öhdəsindən gəlmək üçün psixoloqdan kömək istəmək lazım ola bilər. Bu xəstəliyi olan insanlar heyvanın növündən asılı olmayaraq bütün heyvanlardan qorxa bilərlər.

## Zoofobiya olan insanların reaksiyaları nələrdir?

Heyvanlarla qarşılaşanda zoofobiyanız olub-olmadığını asanlıqla başa düşə bilərsiniz. Aşağıdakı reaksiyalarınız varsa, bu zoofobiya olduğunuz deməkdir:

- ürək atışlarında sürətlənmə
- çaxnaşma vəziyyəti
- dəhşət, qorxu
- başgicəllənmə
- tərləmə
- ağlama
- qaçmaq

Zoofobiya müalicə üsulları nələrdir?

Zoofobiya vacib bir problemdir və müalicə edilməlidir. Heyvansevərlər bu qorxunu anlaya bilmirlər və çox vaxt buna məhəl qoymurlar.

Qorxunun öhdəsindən gəlmək üçün qorxu aradan qaldırılmalıdır. Davranış terapiyası xəstələr üçün ən yaxşı müalicədir. Davranış terapiyası çox təsirli bir üsuldur. Zoofobi



olan insanları körpə heyvanlarla təmasa cəlb edə bilərsiniz. Qorxularının əsassız olduğunu başa düşməsi üçün ona heyvan sənədli filmlərinə baxmağa kömək edə bilərsiniz.

Xəstələr tədricən desensitizasiya üsulu ilə də müalicə oluna bilərlər. Bu üsulla xəstənin ekranda qorxduğu canlıya yaxınlaşıb



baxması təmin edilir.

Əvvəlcə qorxulan heyvanın fotoşəkilləri, filmləri və modellərindən istifadə olunur. Daha sonra, qorxulan heyvanla qarşılaşanda qorxusu ilə mübarizə aparmaq üçün insana rahatlama və nəfəs məşqləri öyrədilir. Nəfəs alma yavaş və dərindən nəfəs alaraq həyata keçirilir.

İstirahət texnikaları, əvvəlcə yavaş-yavaş daralmağa və sonra bədəndəki bəzi əsas əzələ qruplarını rahatlamağa əsaslanır. Faydalı üsullardan biri, təsəvvür etmək və qorxulu vəziyyətlə mübarizə aparmaqdır. Bu mərhələdən sonra, mümkünsə, insanın qorxduğu heyvan qapalı bir qutuda göstərilir. Daha sonra ona toxunmaq hədəflənir.

## Bəs, müalicə üçün dərman nə vaxt lazımdır?

Heyvan fobiyaları çox şiddətlidirsə, adətən, insanda narahatlıq, çaxnaşma pozğunluğu, depressiya kimi başqa bir problemlə qarşılaşırıq. Əgər belə bir əlavə psixi problem aşkar edilsə, dərman müalicəsi tələb olunur. Müalicədə bəzi antidepresan dərmanlar və trankvilizatorlardan istifadə edilir.

## Müalicə nə qədər çəkir?

Başqa heç bir psixi problem yoxdursa, hətta bir seans belə kifayət edə bilər. Ancaq müalicələr bəzən bir ay və ya bir neçə ay çəkə bilər. Dərman müalicəsi ümumiyyətlə altı aydan bir ilə qədər davam edir. Bəzi hallarda bu müddət daha uzun ola bilər.

## Dərman və psixoterapiyaya cavab verməyən xəstələr necə müalicə olunur?

Psixoanalitik psixoterapiya müalicəyə



cavab verməyən və şəxslərarası münasibətlərdə problem yaşayanlar üçün faydalı ola bilər. Bu tip terapiya qorxunun mənşəyini araşdırır. Psixoanalitik psixoterapiyalar, adətən həftədə bir dəfə, bir neçə il çəkə bilər.

## Qorxularınıza qarşı nəfəs alın, rahatlayın

Qorxularınızla mübarizə aparmaq üçün nəfəs məşqlərindən istifadə edə bilərsiniz.

Budur asanlıqla tətbiq edə biləcəyiniz bəzi nəfəs alma texnikaları:

* İşıqsız bir otaqda yumşaq musiqi açın. Sonra divanda uzanın və gözlərinizi yumun.

* Gün batımı və ya dəniz kənarı kimi sakit və gözəl yerləri düşünün.

* Bir və ya iki dəfə burnunuzdan dərindən və yavaş -yavaş nəfəs alın. Nəfəs alarkən sinənizi deyil, qarnınızı hərəkət etdirin. Altı saniyə nəfəs alın və ekshalasiya müddətini uzadın.

* Əvvəlcə var gücünüzlə yumruq edərək əlinizi sıxın. Sonra 10 saniyə istirahət edin. Gərginlik və boşluq arasındakı fərqi hiss etməyə çalışın.

* Üz, boyun, çiyinlər, ayaqlar, ayaq barmaqları və bütün bədəninizdə rahatlama və zövq alın.

## Zoofobiyaya nə səbəb olur?

Zoofobiya, bir çox səbəbdən meydana gələ biləcək hər cür heyvan qorxusu və narahatlıq vəziyyətidir. Bəzən xəstələr birdən çox növ üçün qorxu yaşaya bilər, ancaq bəzən bir növ üçün. Cəmiyyətdəki zoofobiyaya



ümumiyyətlə itlər, pişiklər və böcəklər səbəb olur.

Uşaqlıq travmaları da qorxuların kökündə ola bilər. Bəzən beynin öz funksiyasını tam yerinə yetirə bilməməsi nəticəsində yaranan pozuntular zoofobiyaya səbəb olur. Bu səbəbdən xəstələr zoofobiya üçün psixoloji dəstək almalı və qorxu mənbəyini təyin etməlidirlər.

Bu xəstəlikdən əziyyət çəkən insanlar pişiklərin və itlərin qidalandığı evlərə gedə və qorxduqları heyvanı televizorda izləyə bilməzlər. Qorxular həyata mənfi təsir edir.

Dünyada milyonlarla fərqli heyvan növü yaşayır. Onların çoxu insanlara sevimli və simpatik görünə bilər. Ancaq heyvanlar aləminin guşələrinə baxanda



sizi qorxudacaq varlıqlar var. Bəziləri okeanların dərinliklərində, bəziləri isə meşələrdə və ya yeraltında yaşayır.

Dünyada tapılan təhlükəli heyvan növləri arasında ən çox diqqət çəkən meduzadır. Bu növ meduza çox zəhərlidir və insanı 90 dəqiqə ərzində öldürə bilər.

Dünyanın ən təhlükəli heyvanları və onların xüsusiyyətləri nələrdir?

Dünyanın ən təhlükəli heyvanları arasında bir çox növ var. Bu heyvan növləri ilə qarşılaşmanız ölümcül nəticələrə səbəb ola bilər.

**1. Qutu meduzası**

Meduza növü olan bu canlı çox zəhərlidir. Ümumiyyətlə Sakit okean və Avstraliya sularında rast gəlinir. Aralıq dənizi və Egey bölgələrində nadir hallarda görülür. Cəmi 24 gözü olan bu canlı çox yaxşı bir baxış bucağına malikdir. Digər meduza növlərindən xeyli fərqlənir.

**2. Qara mamba**

Bir ilan növü olan qara mamba çox təhlükəli bir heyvandır. Görünüşündə belə qorxulu olan bu heyvan son dərəcə zəhərlidir. Saldığı zəhərlə birlikdə çox yüksək ölüm nisbətinə malik olan bu ilan növü çox sürətlə hərəkət edə bilir. Təxminən saatda 20 kilometr sürətlə hərəkət etmək qabiliyyətinə malikdirlər.

**3. Nil timsahı**

Kifayət qədər böyük olan Nil timsahları çox təhlükəli heyvanlardır. Uzunluğu 5 metrə, çəkisi 750 kiloqrama çata bilər. Təcavüzkarlığı ilə tanınan bir timsah növüdür. Afrikada tapılan timsah növlərindən ən böyüyü olaraq bilinir.

**4. "Blowfish"**

Təhlükəli bir növ olan bu canlının vətəni Qırmızı dənizdir. O, zəhərli olub, insan orqanizmində iflicə səbəb ola bilər. Həm də dənizdə kiçik balıqları tez -tez ovlayır.

**5. Böyük ağ köpək balığı**

Bu köpək balığı növünün uzunluğu 6 metrə çata bilər. Çox böyük bir balıq növü olan bu köpək balığı dünyanın bütün mülayim sularında yaşaya bilər. Onların sürəti saatda təxminən 65 kilometrdir.

**6. Ox qurbağası**

Bu zəhərli qurbağa çox təhlükəli bir heyvandır. Mərkəzi və Cənubi Amerikada yayılmış bir heyvan növüdür. Bu qurbağa növü ilə təmasda olanda asanlıqla insanı öldürə bilər. Bu səbəbdən ondan uzaq durmaq faydalıdır.

ARAŞDIRMA

**SİA olaraq məsələ ilə bağlı araşdırma aparıb ekspert, psixoloq və şəhər sakinlərinin fikirlərini öyrəndik:**



**Sosial ekspert, jurnalist Rövşən Rəsulov:** "Elə bir insan yoxdur ki, onun ən azı hansısa hala qarşı fobiyası olmasın. Onlardan biri də heyvanlardan qorxmaq halıdır, yəni zoofobiya. Lakin zoofobiyadan danışarkən bir məqamı da unutmamalıyıq ki, bütövlükdə qorxu reflekslərinin hərəkətə gəlməsinin səbəbi nə zamansa beyinə, düşüncəyə ötürülmüş, həkk olunmuş siqnallarla



bağlıdır. Bu isə əsasən insanlarda uşaqlıq vaxtlarından formalaşır. Misal üçün, bir uşaq hündür meyvə ağacının altından keçir və ağacın meyvələrini dərmək həvəsinə düşür. Çıxır ağaca və ani bir ehtiyatsızlıq üzündən oradan yıxılır. Aldığı fiziki travmaları ilə yanaşı, uşaqda həm də yüksəklik qorxusu yaranır. Həmin uşaq böyüsə belə, hündürlük fobiyası onda demək olar ki, ömürlük olaraq yaranır.

Eləcə də zoofobiyada da təxminən eyni vəziyyət yaşanır. Uşaq bir köpəklə oynayır və köpək onu dişləyir, yaxud onun gözü qarşısında hər hansı bir heyvan digər birinə zərər verir. Təbii ki, zoofobiya refleksləri yaranır və bu da bilavasitə psixoloji təsirlə ötürülür.

Ümumiyyətlə, bizim həyatımızda baş verən bütün proseslər həm də psixoloji amillərlə bağlıdır. Əgər bizə mənfi təsir edən, fobiyalar yaradan hər nə varsa onun öhdəsindən gələ biləcək də özümüz ola bilərik. Bəli, əgər özünəinamımız olarsa... Əks halda psixoloji yardımdan istifadə etməyə gərək duyulacaq. Yəni demək istədiyim budur ki, hətta ən çətin fobiyalara qarşı iradəmizlə qalib gələ bilərik. Biz dəfələrlə müxtəlif ölkələrdə ölümcül xəstəliklərə mübtəla olmuş insanların mübarizə ruhlarını, onların özlərinin-özlərini necə sağaltdıqlarını görmüşük, müşahidə etmişik. Mövzudan kənara çıxmayaraq bir daha qeyd etmək istərdim ki, qorxu hissinə qalib gəlmək, həyata real baxmaq lazımdır ki, sonradan insanlarda fobiyalar yaranmasın. Hər kəsə foobiyasız həyat arzulayıram".

**Psixoloq Fərqanə Mehmanqızı:** "Zoofobiya heyvanlardan qorxu fobiyasıdır. Bu fobiyanın çox müxtəlif növləri var. Misal üçün kinofobiya var, itlərdən, aqrezofobiya vəhşi heyvanlardan, allerofobiya pişikdən, apifobiya arı, ağcaqanad, milçək və s. bunun kimi bir çox fobiyalar var.

Fobiyaların yaranmasının əsas 3 səbəbi var. Genetik faktor, düzgün olmayan tərbiyə, yəni uşaqlara heyvanlarla qorxudaraq verilən tərbiyə və heyvanlarla bağlı hər hansı bir hadisə nəticəsində travma alınır və heyvanlardan qorxulur.

Zoofobiyanın səbəbləri müxtəlif olduğu kimi müalicəsi də müxtəlifdir, adətən, psixoterapevt və nervopotoloqla bir yerdə farmakoloji müalicə olunur. Amma, bu gün müasir dövrdə psixoterapiya o qədər inkişaf edib ki, oyuncaqlar var ki, heyvanlara bənzəyir, onlara toxunmaqla, yanında durmaqla müalicəsi yolları var və adətən koqnektiv terapiya ilə müalicə edirlər. Amma, əgər müalicə olunmasa fobiya o qədər kəskinləşə bilər ki, insanlar çölə çıxmaya, qorxduqları heyvanla qarşılaşma qorxusundan evdən çıxmaya, asosiallaşa, panikatak yaşaya bilərlər və müxtəlif xəstəliklər yaşaya bilərlər.

İnsanlar var ki, bu fobiyanı kəskin yaşayır. İnsanlar da var ki, zəif yaşayır və bu da yenə insanın psixoloji halından, xasiyyətindən, yaşadığı mühitdən asılıdır və əgər müalicə olunmasa evə də qapana bilərlər".

*İndi isə şəhər sakinlərinin fikirlərini öyrənək:*

**Şəhər sakini Aliyə Qarayeva:** "Həyatda ən çox qorxduğum heyvan itdir. İtdən həddsiz dərəcədə qorxuram. Məsələn, yolda gedərkən bir it görəndə, hətta məndən biraz uzaqda da olsa o dəqiqə qorxmağa başlayıram, həyəcan keçirirəm, sanki mənə elə gəlir ki, artıq it ayaqlarımdan yapışıb. Bu qorxu hissi məni çox narahat edir. İti görəndə gözüm arxada qalır, elə bilirəm ki, sanki məni izləyir. Çox çalışıram ki, bu qorxu hissindən can qurtarım, amma bacarmıram".

**Şəhər sakini Alidə Əliyeva:** "Mənim ən çox qorxduğum heyvan şir, ilan və itdir. Uşaqlıqdan bəri bu canlılardan çox qorxuram və bu insanın özündən asılı olan birşey deyil. Artıq mənim psixologiyamda izi qalıb. Uşaq vaxtı it üstümə gəlmişdi. 41 yaşım var və hələ də unuda bilmirəm. Həqiqətən çox qorxmuşdum. Çox az adam tapılar ki, heyvanlardan qorxmasın".

**Şəhər sakini Rüqəyyə Orucova:** "Ən qorxduğum canlı həşəratlardır. Çünki istəmədən ürkürəm. Ən sevdiyim pişikdir. Çünki pişiklər tam bir yadplanetlidir. Yəni, çox qəribə və maraqlı davranışları var".

**Şəhər sakini Aytac Ali:** "Ən sevdiyim heyvan pişiklərdir. Çünki çox şirindirlər və gözlərinə baxanda əsəbim, stresim keçir. Sanki pişiklər məni rahatladır. Onları sığallayanda, xırıltılarını eşidib gözlərində o məsumluğu görəndə mənəvi cəhətdən sakitləşirəm. Ən qorxduğum heyvan isə qeyd şərtsiz ilandır. Sürünməyi məni hürküdür, tükləri biz-biz olur. Səsini eşidəndə isə o dünyanı görüb gəlirəm".

**Şəhər sakini Fidan Məmmədova:** "Mən ümumiyyətlə pişiyi, dovşanı və balaca cins itləri çox sevirəm. Səbəb isə onların çox şirin və sevimli olmasıdır. Özüm də pişik saxlamağı düşünürəm. Sevmədiyim heyvanlar isə ilan, böcəklər, şir, canavar və bu qəbildən olan digər yırtıcı heyvanlardır. Səbəb isə adlarından da görsəndiyi kimi, yırtıcı və təhlükəli olmalarıdır".

*Ayşən Vəli*

# "Ermənistandakı etiraz aksiyalarının iki səbəbi var"



"Ermənistanda etiraz aksiyalarını Robert Koçaryan özü elan edibdir və o öz tərəfdarlarını etiraz aksiyalarına çağırır. Demək olar ki, o, yayda keçirilən parlament seçkilərindən sonra bu seçkilərin nəticələrini qəbul etmək məcburiyyətində qaldı və bu inersiyanı, yəni siyasi proseslərdə fəallığı parlamentin ilk iclaslarında saxlamaq niyyətindədir, o mənada ki, biz görürük davalar baş verir, parlament müxalifəti hər vəchlə Paşinyanı aşağılamaq, onun fraksiyasına qarşı təxribatlar törətməklə məşğuldur." Bu sözləri SİA-ya açıqlamasında politoloq Fərhad Məmmədli deyib.

Politoloq qeyd edib ki, onlar ictimai-siyasi fəallığı qoruyub saxlamaq niyyətindədirlər. "İndi aksiyalar nəyə görə baş verir? Birincisi, müharibənin ildönümüdür və bu, müharibənin uğursuz nəticələrini, Paşinyanın səhvlərini yada salmaq və bunun üzərindən öz tərəfdarlarını səfərbər etməkdir. Digər bir mövzu da Ermənistan ətrafında cərəyan edən proseslərdir. Çünki hamı anlayır ki, təqribən bir aydan bir az artıq vaxtdan sonra 10 noyabr bəyanatının bir ili tamam olacaqdır və konkret nəticələr olmalıdır. Yaxud 11 yanvar bəyanatı ilə bağlı da konkret nəticələr olmalıdır. Bu isə kommunikasiyaların açılması və qərarların qəbul edilməsidir.

Təsadüfi deyil ki, Putin Paşinyanı Moskvaya dəvət edibdir. Çünki fikir versəniz, Rusiya özü tələsirdi ki, bu kommunikasiya layihələri tez bir zamanda həyata keçirilsin. Ona görə də 10 noyabrdan iki ay sonra, yanvar ayında bəyanat qəbul olundu və bəyanatda tarixlər qeyd edildi ki, bir aydan sonra kamissiya işə başlamalı idi, iki aydan sonra artıq layihələndirmə işləri yekunlaşdırılmalı idi. Biz bu gün görürük ki, həmin gecikmə nəyə gətirib çıxardı? Həmin gecikmə İranın Ermənistana müdaxiləsinə gətirib çıxardı. Bu da heç bir vəchlə Rusiyanı qane edə bilməz.

Daxildə bunu anlayırlar ki, Paşinyana çox ciddi şəkildə təsirlər var və qərarlar qəbul edilməlidir. Bu qərarların astanasında olan Ermənistanda yenidən emosiyaların qalxması, bundan müxalifətin istifadə etməsi nəzərdə tutulur. Yəni, etiraz aksiyalarının iki səbəbi var. O ki qaldı onların səmərəliliyinə, biz gördük ki, yenə də Koçaryan tərəfdarları azlıq təşkil edir və düşünmürəm ki, onlar bu etiraz aksiyalarına hansısa bir kritik insan kütləsini toplaya bilsin. Kritik insan kütləsi deyəndə mən təxminən 40-50 min nəfərlik mitinqi nəzərdə tuturam", deyə politoloq Fərhad Məmmədli bildirib.

*İnam Hacıyev*

**İQTİSADÇI EKSPERT AÇIQLADI**

# "Avtomobil yolunun tikintisinə ayrılan vəsaitin böyük önəmi var" -



"Bütövlükdə yol nəqliyyatı həm logistik xidmətlərin inkişafı, həm də iqtisadi inkişaf baxımından çox vacibdir. Çünki, nəzərə alsaq ki, Azərbaycan infrastrukturun, eləcə də nəqliyyat və logistik şəbəkənin inkişafına xüsusi diqqət ayırır. Bu baxımdan ölkə Prezidentinin son Sərəncamı ilə Xızı rayonunun avtomobil yolunun tikintisi üçün vəsaitin ayrılması həm də bölgələrdə infrastrukturun inkişaf etdirilməsi və o cümlədən təbii ki, yolların, nəqliyyat və logistik şəbəkənin inkişafı baxımından vacibdir". Bu sözləri SİA-ya açıqlamasında deputat, iqtisadçı-ekspert Vüqar Bayramov deyib.

Onun sözlərinə görə, Xızı rayonu son illər Azərbaycanda turizm potensialına görə fərqlənən rayondur: "Xızı, paytaxta nisbətən məsafə baxımından yaxınlığı ilə seçilən rayondur. Ona görə də Xızı rayonunun inkişafı, xüsusən daxili turizmin inkişafı baxımından çox vacibdir". Vüqar Bayramov sözlərinə belə davam edib: "Nəzərə alsaq ki, Xızı rayonu həm də qış turizm potensialına malik olan rayonlarımızdandır. Ona görə də təbii ki, bütövlükdə yeni yolların çəkilməsi vəsaitin ayrılması həm də Xızı rayonunun inkişafı baxımından vacibdir. Bu həm də daxili turizmin inkişafına xüsusi töhfə verəcək. Həmçinin, kiçik-orta sahibkarların inkişafına, nəqliyyat və logistik xidmətlərin sözsüz rolu var. Ona görə də bu qərar bir tərəfdən sürücülər üçün daha rahat və müasir standartlara uyğun yoldan istifadə imkanı deməkdir. Digər tərəfdən isə bölgələrimizin və xüsusən Xızı rayonunun inkişafı baxımından müsbət təsirləri olacaq".

# SİYASİ QALMAQAL:
## Çavuşoğlundan Makrona: "Sözün varsa, üzümüzə de"





"Deyəcək sözün varsa, üzümüzə de!". SİA xəbər verir ki, bunu Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu Fransa prezidenti Emmanuel Makronun Əlcəzair bəyanatı ilə bağlı danışarkən deyib. "Hazırda Fransa seçki mühitinə qədəm qoyub. Seçkilərə görə Makronun bu yollara əl atdığını görürük. Gördük ki, bu cür ucuz yanaşmaların seçkilərdə heç bir faydası yoxdur. Düşünürəm ki, Makron bu cür populist yanaşmalar yerinə, xalqının etibarını qazanmaq üçün addımlar atmalıdır. Bizimlə bağlı söyləyəcək bir sözü varsa, onu arxamızdan deyil, birbaşa üzümüzə deməyini üstün tuturuq. Eynən Prezidentimizin etdiyi kimi", - deyə Çavuşoğlu bildirib.

Qeyd edək ki, bir müddət əvvəl Fransanın Əlcəzairlə də münasibətləri pisləşmişdi. Makron Əlcəzairdə koloniya dövrü ilə bağlı tarixin yanlış yazıldığını və Türkiyənin bu işdə aktiv rol oynadığını bildirmişdi. Bundan sonra Əlcəzair səfirini ölkəyə geri çağırmışdı.

# Regionların sosial-iqtisadi inkişafı üçün real şərait yaradılıb



Konkret hədəflərə əsaslanan strategiya və baxışlar sistemi olmadan iqtisadi sahədə yüksək nəticələrin qazanılması mümkünsüzdür və hədəfləri uğurla gerçəkləşdirmək isə dərin iqtisadi təfəkkürə malik güclü siyasi liderlər sayəsində mümkündür. Bu mənada Azərbaycanın Cənubi Qafqaz regionunda sayılıb-seçilən, nüfuzlu dövlətlərdən birinə çevrilməsi məhz Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını Azərbaycan Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirməsi sayəsində mümkün olub. Dövlət başçısının rəhbərliyi ilə ölkənin siyasi və sosial-iqtisadi həyatında fundamental dəyişikliklərin aparılması, iqtisadi siyasətdə çevikliyin təmin olunması, struktur dəyişiklikləri ilə institusional islahatların paralel şəkildə aparılması konkret hədəflərə çatmağa imkan yaradıb.

Ölkəmizdə milli iqtisadiyyatın sosialyönümlü olması, xüsusilə, insan amilinin ön planda dayanması əlbəttə ki, ən çox diqqəti cəlb edən məqamdır. Dövlətimizin yürütdüyü siyasətin əsasını vətəndaş amili təşkil edir, insanların maraq və mənafeləri öndə dayanır və bu barədə ölkə başçısı cənab İlham Əliyev şəxsən dəfələrlə bildirib. Prezidentin rəhbərliyi ilə aparılan çoxşaxəli islahatlar sözün həqiqi mənasında sosialyönümlüdür və diqqəti cəlb edən ən vacib məsələ də bu çoxşaxəli islahatların əsas hədəfi, inkişaf prosesində hər bir vətəndaşın iştirakını təmin etməkdir. Təbii ki, iqtisadiyyatın şaxələndirilməsi onun dinamik inkişafı, dayanıqlı olması üçün vacibdir. Nəzərə alsaq ki, milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın tərkib hissəsidir və bu baxımdan da xarici mühitdən təsirlənə bilir, deməli, iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığının gücləndirilməsi və şaxələndirilməsi, xüsusilə, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi mütləq təmin olunmalıdır.

Müasir islahatçı baxışın və idarəetmə formalarının tətbiqini aktuallaşdıran məhz ölkədə, regionda, eləcə də ümumilikdə qlobal planda cərəyan edən mürəkkəb siyasi, iqtisadi və humanitar proseslərdir. Dövlət başçısının, cənab Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sənəd ölkənin uzunmüddətli dayanıqlı inkişaf hədəflərinin müəyyənləşdirilməsi və islahatların konkret proqramlar əsasında reallaşdırılması üçün yeni imkanlar yaradıb. Ölkədə aparılan sistem xarakterli islahatlar, xüsusən, hökumətin tərkibinin yenilənməsi, insan amilinin sosial-iqtisadi islahatların əsas prioritetinə çevrilməsi, ən əsası, 2020-ci ildə ərazilərimizin Ermənistanın işğalından azad edilməsi sosial-iqtisadi və innovativ inkişaf sahələrində yeni vəzifələr müəyyənləşdirilməsinə zəmin yaradıb. Sosial rifah səviyyəsinin davamlı artımı məqsədilə yüksək, dayanıqlı, inklüziv və özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətləndirilməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini perspektiv üçün qarşıda duran ən vacib vəzifələrdəndir. Bu baxımdan da şaxələndirmə və qeyri-neft sektorunun inkişafı tədbirlərinin davam etdirilməsi, yerli və xarici sərmayələrin təşviqi, şəffaf özəlləşmə strategiyasının həyata keçirilməsi, kapital və sığorta bazarının inkişafı və digər mühüm məsələlər ön plandadır.



Son illər dövlət başçısının qətiyyətlə həyata keçirdiyi kadr islahatları, ələlxüsus müasir təfəkkürlü və idarəetmə sahəsində novatorluğu ilə fərqlənən gənclərin irəli çəkilməsi islahatların miqyasını və tempini sürətləndirir. Bu, eləcə də xidmət sahələrində vətəndaş məmnunluğunun, idarəçilikdə səmərəliliyin və şəffaflığı təmin edilməsi deməkdir. Heç şübhəsiz ki, belə islahatlar yaradıcı düşüncəli, islahatlara meyilli menecer və texnokrat baxışlı məmur elitasının təmsil olunması üçün geniş imkan açıb və nəticə də göz önündədir.

Ölkə başçısının 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sənəddə sosial siyasətin təminatı sahəsində başlıca hədəflərin aydın və əhatəli şəkildə öz əksini tapması diqqət çəkən məqamdır. Beləki, həmin sənəddə yüksək inkişaf yalnız iqtisadi artım göstəricisi kimi yox, eyni zamanda cəmiyyətin bütün üzvlərinin sosial rifahının yüksəldilməsi baxımından vacib amil olaraq göstərilir. Buna müvafiq olaraq, iqtisadiyyat inkişaf etdikcə vətəndaşların sərvət və gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılaraq layiqli səviyyəsinin təmin olunması, əməkhaqqı artımının əmək məhsuldarlığının artımı ilə uzlaşdırılması, artan gəlirlərin daha geniş iqtisadi imkanlar yaratması, bütün əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunması gözləniləndir.

Görülən işlər, nəzərdə tutulanlar, bundan sonrakı on ildə aparılacaq islahatlar təbii ki, ümumi inkişafa gətirib çıxaracaq və bu da hər bir vətəndaşın layiqli şəkildə bəhrələnməsinə səbəb olacaq. Bu, eləcə də yüksək və ədalətli sosial təminat sisteminin, inklüziv cəmiyyətin yaradılmasına, paytaxt və regionların tarazlı inkişafına xidmət edəcək. Bir sözlə, nəzərdə tutulan yüksək inkişaf səviyyəsi sosial rifahın artması, əhalinin sərvət və gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılması, yoxsulluq səviyyəsinin tamamilə azaldılması, hətta aradan qaldırılması deməkdir ki, yaxın on ildə buna şahid olacağımıza əminik. Çünki, sosial-iqtisadi tərəqqi prosesində qazanılan nailiyyətlərin miqyasının hər il durmadan artması, daha da genişlənməsi əhalinin bütün təbəqələrinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bərabər, mümkün zəruri tədbirlərin uğurla reallaşmasına da zəmin yaradır. Məhz regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi üçün ən başlıca amil və şərt də elə bundan ibarətdir.

Son 1 ildə, yeni dünyanı pandemiya öz cənginə aldığı bir dövrdə, özü də bir sıra Avropa ölkələrində büdcə xərclərinin azaldıldığı halda, ciddi sosial gərginlik yarandığı məqamda Azərbaycanda sosialyönümlü layihələrin reallaşdırılmasında hansısa ləngimə belə olmayıb. Baxmayaraq ki, yeni növ koronavirusun geniş yayılmasının iqtisadi fəallığa və büdcə daxilolmalarına mənfi təsiri danılmazdır. Amma belə bir mənfi təsirlərin fonunda sosial təminat və sosial müdafiə tədbirlərinin daha da genişləndirilməsi təsadüfi deyil və ölkədə sosial-iqtisadi yüksəlişin olduğunu təsdiq edir.

Göründüyü kimi, regionların sosial-iqtisadi inkişafı üçün real şərait yaradılıb və lazımi bütün addımlar dövlət tərəfindən atılır. Regionların ümumi inkişaf səviyyəsinin daha da yüksəldilməsi məqsədi ilə icrası davam edən proqramlar mövcuddur. Əgər sərəncamlar, qərarlar, dövlət proqramları, eyni zamanda öhdəliklər layiqincə yerinə yetirilərsə, regionların gələcək sosial-iqtisadi inkişafına zərrə qədər şübhə ola bilməz.

***İnam Hacıyev***

# Azərbaycan neftinin maya dəyəri nə qədərdir?




2020-ci ildə 1 ton neftin istehsal maya dəyəri 118,85 manat təşkil edib və keçən ilin müvafiq dövrü ilə müqayisədə 4,97 manat və ya 4 % azalıb. SİA-nın məlumatına görə, bu barədə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) illik hesabatında qeyd olunub. Şirkət üzrə neftin hasilatına çəkilən cəmi istehsal xərclərinin tərkibində material xərclərinin xüsusi çəkisi 3,4%, əmək haqqı xərcləri 16,4%, sosial sığortaya ayırmalar 3,4%, amortizasiya ayırmaları 19,5 %, təmir xərcləri 9,1 %, texniki xidmət xərcləri 5,1%, nəqliyyat xərcləri 15,4%, mədən vergisi 8,1%, digər vergilər 5,7% və s. təşkil edir.

Neftin nəqli və İstehsalat birliyinin digər xərcləri də nəzərə alınmaqla 1 ton neftin tam maya dəyəri 153,56 manat təşkil etdib.

# Neçə şəhid ailəsi və qazi işlə təmin olunub?

Möhtəşəm Zəfərimizlə başa çatan Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, müharibənin qazilərinin, erməni terrorundan zərər çəkən çəkən şəxslərin məşğulluğuna və özünüməşğulluğuna dəstək tədbirləri geniş miqyas alıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən SİA-ya verilən məlumata görə, nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi Vətən müharibəsindən sonrakı dövrdə həmin kateqoriyalara aid 5320 şəxsi özünüməşğulluq proqramına cəlb edib. Onlara proqram çərçivəsində mal və materiallar formasında aktivlər verilməklə kiçik ailə təsərrüfatları yaradılıb.




2000-dən çox şəxs isə aktiv məşğulluq proqramları çərçivəsində münasib işlərlə təmin edilib. Şəhid ailəsi üzvləri və müharibədə yaralanmış qazilərin məşğulluğuna dəstək məqsədilə bu ilin 10 iyunundan başlanan "Məşğulluq marafonu"na artıq 534 işəgötürən qoşularaq, 2833 vakansiya təqdim edib. Həmin vakansiyalar üzrə bu günədək 832 şəhid ailəsi üzvü və qazi işlə təmin olunub.

# Vətəndaşların əlində qalan özəlləşdirmə çekləri haqda qərar nə vaxt olacaq?

"Özəlləşdirmə çeklərinin müddəti birinci dəfə olaraq çoxdan bitib və vətəndaşların əlində özəlləşdirmə çeklərinin qalması səbəbi ilə bu təcrübə istifadə edilib və vaxt uzadılıb". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Eldəniz Əmirov deyib. Eldəniz Əmirov qeyd edib ki, qarşıdakı müddətdə hansısa bir vaxtda yenidən özəlləşdirmə çeklərinin vaxtının uzadılmasını düşünmürəm: "Bunun uzadılması ilə bağlı müəyyən istəklər ola bilər. Amma bunun mənfi tərəfləri də var. Artıq özəlləşdirmə saxtalarının hazırlanması və yaxud da ki, praktiki olaraq istifadəsinin nə qədər səmərəli olub-olmaması kimi məsələlər, suallar var ki, bununla bağlı hər hansı bir qərarın verilməməsi belə ona qoyulmuş vaxtın uzadılmaması ilə bağlıdır".



**İQTİSADÇI-EKSPERT AÇIQLADI**

***Arzu Qurbanzadə***

# “Qərar texniki uyğunsuzluğun aradan qaldırılmasına xidmət edir”

**“28 May Respublika Gününün ”Müstəqillik Günü”, ”Müstəqillik Günü”nün isə ”Müstəqilliyin Bərpası Günü” adlandırılması barədə irəli sürülən təşəbbüs tamamilə məntiqə uyğundur və tariximizlə bağlı reallıqları olduğu kimi əks etdirir. Bunu SİA-ya açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli deyib.**




## Ekspert şərh etdi

Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbə, ölkəmizin ərazi bütövlüyünün bərpası, dövlətimizin regional və qlobal proseslərdəki rolu və mövqeyi, Azərbaycan xalqının dünyagörüşü, öz tarixinə, mədəniyyətinə, daşıdığı dəyərlərə və təbii ki, dövlətçiliyinə olan bağlılığı müstəqilliyimiz və milli kimliyimiz ilə bağlı hadisələrə yenidən və sistemli baxışı zəruri edir: ”Müzəffər Ordumuzun 30 ilə yaxın bir zaman kəsiyində işğal altımızda olan ərazilərimizi böyük rəşadət və qəhrəmanlıqla azad etməsi vaxtilə heç bir fundamental əsas olmadan ortaya atılıb ”Dağlıq Qarabağ” ifadəsini siyasi leksikondan həmişəlik silmiş, tarixi torpaqlarımız üzərində qurulmuş indiki Ermənistan Respublikasının ərazisindəki toponimlərin, bu ərazilərdə min illər boyu yaşamış Azərbaycan xalqının vaxtilə sahibi olduğu coğrafi məkanlara verdiyi adlarla çağırılması, milli toponimlərə münasibətdə də tarixi ədalətin bərpa edilməsi zərurətini ortaya çıxarıb.

Qeyd edim ki, 18 oktyabr Müstəqillik Günü adlandırılsa da, ”Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının preambulası mahiyyət etibarilə müstəqilliyin bərpası ideyası üzərində qurulub. Sözügedən aktda Azərbaycan Respublikasının 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu xüsusi olaraq vurğulanıb ki, bu da birmənalı olaraq, dövlət müstəqilliyimizin elan olunduğu tarixin 1918-ci il mayın 28-i olduğu anlamına gəlir. ”Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında qeyd olunur ki, ”Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq və ”Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında” Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsini rəhbər tutaraq bu Konstitusiya Aktını qəbul edir və müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsaslarını təsis edir”.

Ekspert bildirib ki, məlum olduğu kimi, Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixində qəbul etdiyi müvafiq Bəyannaməsi də ”Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında” adlanır: ”Həm ölkə parlamentinin qəbul etdiyi müvafiq aktlar, həm də tarixi həqiqət ondan ibarətdir ki, Azərbaycan Respublikasının Müstəqillik Günü 28 may tarixidir. 18 oktyabr isə Dövlət Müstəqilliyinin bərpası günüdür. Bu, hər kəsin qəbul edəcəyi olduqca sadə, məntiqli və tarixi reallıqları əks etdirən faktdır və müzakirəyə belə ehtiyacı yoxdur. 28 May Respublika Gününü ”Müstəqillik günü”, ”Müstəqillik günü”nün isə ”Müstəqilliyin bərpası günü” adlandırılması barədə irəli sürülən təşəbbüsün mahiyyəti də ”Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının məzmunu və başlığı arasındakı texniki uyğunsuzluğun aradan qaldırılmasına xidmət edir. Çünki aktın özündə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından söhbət getsə də aktın adı ”müstəqillik aktı” kimi verilib. Qanunvericik aktlarına qeyd olunan məqamlarla bağlı düzəlişlər Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu daha qabarıq, daha dəqiq bir şəkildə ifadə edir. Bu həm də Azərbaycan əleyhinə təbliğat aparan qüvvələrin, o cümlədən Ermənistanın və himayədarlarının, həmçinin müstəqil dövlətimizin milli dəyərlərimiz, tariximiz üzərindən inkişafını qəbul edə, dünyəvi, demokratik və hüquqi dövlət modelimizlə barışa bilməyən dairələrin qeyd olunan uyğunsuzluqlarla bağlı təbliğatını da sıradan çıxaracaq”.

E.Mirzəbəyli vurğulayıb ki, 28 may tarixinin müstəqillik günü, 18 oktyabr tarixinin isə müstəqilliyin bərpası günü kimi təsbit olunması Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin məhz 1918-ci ildə bərqərar olunması, məhz həmin tarixdən dövlətimizin müstəqil hüququn subyekinə çevrilməsi faktına əsaslanır: ”Bu isə öz növbəsində ərazi bütövlüyünü bərpa etmiş müasir Azərbaycanın 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin tamhüquqlu varisi olduğunu bir daha, həm də hüquqi-normativ akt şəklində təsdiqləyir. Mövcud yanaşma Azərbaycan Xalq Cümhuriyyətinin sərhədləri və əraziləri ilə bağlı tarixi və hüquqi gerçəklikləri gündəmə gətirir ki, bu da, şübhəsiz ki, azərbaycanlıların öz tarixi torpaqlarına, eyni zamanda Zəngəzura qayıdışı baxımından olduqca mühüm əhəmiyyət daşıyan məqamlardır. Digər tərəfdən, əgər bizim himnimiz, bayrağımız, dövlət gerbimiz Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi dövlət rəmzləridirsə, bu o deməkdir ki, müstəqilliyimizin tarixi də Azərbaycan Xalq Cümhuriyyətinin yaranış tarixindən - mayın 28-dən başlayır”.

***Aysel Məmmədova***



# YAP Şabran rayon təşkilatında ”Şəhid ailələrinə qayğı” aksiyası davam edir





Yeni Azərbaycan Partiyası Şabran rayon təşkilatında ”Şəhid ailələrinə qayğı” aksiyası davam edir. YAP Şabran rayon təşkilatının nümayəndələri Vətən müharibəsi şəhidləri İsgəndərov Elvin Aydın oğlu və Rəsulov Mirbala Əmrağa oğlunun şəhid olmalarının ildönümü ilə bağlı ailələri ziyarət edib, qayğıları ilə maraqlanılıb. Mərasimlərdə Şabran Rayon İcra Hakimiyyəti başçısı Asif Hüseynov, YAP Şabran rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Mehdi Balabəyov, hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP Şabran rayon təşkilatının əməkdaşları və rayon ictimaiyyətinin nümayəndələri iştirak edibələr.

Daha sonra rayonun Zeyvə kəndində Şəhid Poladov Aynur Şıxbaba oğlunun ildönümü mərasimi keçirilib.

Mərasimdə YAP Şabran rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Mehdi Balabəyov, Milli Məclisin deputatı Sadiq Qurbanov, YAP Şabran rayon təşkilatının aparat işçiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak edib. Tədbir iştirakçıları şəhidin qəbrini ziyarət edib, üzərinə tər güllər qoyulub, ailəsi ziyarət olunub.

Şabranda, həmçinin şəhid Ağaquliyev İlkin Saməddin oğlunun doğum günündə əziz xatirəsinə həsr olunmuş barelyef abidə kompleksinin açılışı olub. Açılış mərasimində YAP Şabran rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Mehdi Balabəyov, YAP Şabran rayon təşkilatının nümayəndələri, rayon ictimaiyyətinin nümayəndələri iştirak edib.

***RƏFİQƏ***

TƏRS BAXIŞ+ÖZƏL

# Serjikin mətbuat katibləri və vəkilləri




**Yaxud, onların dartılacaq qulaqları...**

Ermənistanın keçmiş və devrilmiş cəllad prezidenti Serjik Sarqsyanın cinayətkar əməlləri, xainliyi və qorxaqlığı, xüsusilə. simasız biri olması barədə gen-bol danışmaq olar. Faktlar, dəlillər, sübutlar kifayət qədərdir. Lakin onun barəsində ən dəqiq rəyi elə Prezident İlham Əliyev verib - xüsusilə, Azərbaycanın şanlı ordusu Qarabağı işğaldan azad edərkən onun quyruğunu qısıb-qulaqlarını sallayaraq Xankəndidən qaçması faktı əsasında.

Lakin nədənsə, qulağısallaq və quyruğuqısıq Serjiklə yanaşı, onun kimi digər revanşçı terrorçuların da Ali Baş Komandanımız tərəfindən xəbərdarlıq atəşinə məruz qalmaları bəzi siyasi şivənçilərin xoşlarına getməyib və onlar nə qədər qəribə görünsə də, görünməsə də Serjikə qahmar çıxmağa başlayıblar.Yəni vəkillik, mətbuat katibi xidmətləri göstərmələri ilə.

**Bəs kimlərdir onlar?**

Əslində, hər biri tanınan şivənçi ünsürlərdirlər - uzun illər xarici ölkələrdə düşmən çörəyi ilə qidalanıb-Azərbaycan hakimiyyətinə, dövlətinə qarşı, sözün əsl mənasında, xoruzlananlar! Başda AXCP sədri Əli Kərimli, Müsavat başqanı Arif Hacılı, ”Milli Şura”nın sədri Cəmil Həsənli, Qənimət Zahid, Sevinc Osmanqızı, eləcə də illərdir erməni dəyirmanına su tökən ”Meydan tv”, ”Hamam Times” kimi bir əllərində aftafa, digər əllərində də dəsmal tutub, ermənilərin beşinci nöqtələrini qurudanlar və əlbəttə ki, onların balaca aftafadaşıyan trolları!

**Erməni aşnaları qabaqlarına sür-sümük tullayacaqlar, onlar da bəh-bəhlə, ağızları helikləne-heliklənə o sümükləri gəmirəcəklər**

Hər zaman belə olub - Azərbaycan dövləti dünya miqyasında hər hansı bir uğura imza atarkən, beynəlxalq miqyaslı qələbələr qazanarkən düşmən mediasından əvvəl onlar həmin uğurlara, qələbələrə kölgə salmağa, qaralamağa çalışıblar. Nədir-nədir, erməni aşnaları qabaqlarına sür-sümük tullayacaqlar, onlar da bəhbəhlə, ağızları helikləne-heliklənə o sümükləri gəmirəcəklər.

Yəni belə demək olar ki, Prezidentin ortaya qoyduğu danılmaz faktları qarşısında yenidən ulamağa başlayan qulağısallaq və quyruğuqısıq Serjikin hürmə səslərini Ermənistan mediasından əvvəl AXCP-çilər, müsavatçılar, ”Milli Şura”çılar, eyni zamanda ”Meydan tv”, HamamTimes və balaca aftafadaşıyan trolları dərhal, eləcə də böyük həvəslə tirajladılar. Nə deyəsən, bəlkə də Serjik onların mənəvi ataları imiş, sadəcə, bizim xəbərimiz yoxumuş...

Hətta onların içərisində elə cəbhəçilər və müsavatçılar var idi ki, Serjikin aldığı şapalaqdan əvvəl o zərbəni hiss edib, daha əvvəl öz təbirlərincə ”cavab statusları” cızma-qaraladılar. Mənzərəni belə də təsəvvür etmək olar: bir sürü ac köpəklərin bəhsə-bəhsə girməklə hürmə yarışına çıxmaları...

**Tez bir zamanda qulaqlarını uzatsınlar bəri ki, biz də o qulaqları dartaq, savabdır...**

Hərgah həmin ikiayaqlı məxluqlar mənəvi ataları rolunda çıxış edən Serjikin qulaqlarının sallanmasına, quyruğunun isə qısılmasına bu qədər məyus olublarsa, onda çox yəqin ki, onlara zaman-zaman və tez-tez bənzər dərsləri vermək yerinə düşərdi.

Təkcə bir faktla onların barəsində ən aşağılayıcı ifadələri söyləmək olar. Onlar Azərbaycan xalqının Liderinin Xocalı soyqırımını törətmiş bir cəlladı hədəfə almasından narahatlıq keçirirlərsə, o cəllada qahmar çıxırlarsa, ona vəkillik, mətbuat katibliyi kimi xidmətlər göstərirlərsə, deməkki, daha ağır ittihamlara, həqarətlərə layiqdirlər, bəlkə də qulağıkəsik, quyruğuqısıq Serjikdən də artıq. Onda gecikməsinlər, erməni mənəvi atalarından geri qalmayaraq tez bir zamanda qulaqlarını uzatsınlar bəri ki, biz də o qulaqları dartaq, belə qulaqları dartıb uzatmaq savabdır...

***Rövşən RƏSULOV***

# Şəhid ailələri dövlət tərəfindən diqqət və qayğı ilə əhatə olunub




Qəbələ rayonunda Vətən müharibəsi şəhidi Tural Cəlilovun məzarı ziyarət edilib

44 gün davam edən və zəfərlə nəticələnən Vətən müharibəsində qəhrəmanlıq dastanı yazan oğullardan biri -Yeni Dizaxlı kənd sakini Cəlilov Tural Cəllad oğlunun şəhadətə qovuşmasının ildönümü münasibətilə rayon ictimaiyyətinin nümayəndələri şəhidin məzarını ziyarət etmişlər. Rayon icra hakimiyyətinin, YAP Qəbələ rayon təşkilatının,hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri və şəhidin təhsil aldığı məktəbin kollektivi onun məzarını ziyarət edərək üzərinə gül dəstələri qoymuş, xatirəsi anılaraq, ruhuna dualar oxunmuş və şəhidin ailəsi evlərində ziyarət edilmişdir. Şəhidin ailə üzvləri dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

*Rəfiqə*

# Masallı rayonunda "Şəhid ailələrinə və Vətən müharibəsi qazilərinə dəstək" layihəsi davam edir





**Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının nümayəndələri "Şəhid ailələrinə və Vətən müharibəsi qazilərinə dəstək" layihəsi çərçivəsində rayonun Yeddioymaq və Xoşçobanlı kəndlərindən olan şəhid, baş leytenant Əlimərdan Quluzadə Fəttah oğlu və şəhid Musa Mustafayev Əlövsət oğlunun anım günündə məzarını ziyarət edib, ailələri ilə görüşüblər.**

Görüş zamanı YAP Masallı rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Seyfəddin Əliyev bildirib ki, 44 günlük müharibə Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti və iradəsi ilə müzəffər ordumuzun gücünü, xalqımızın birliyini dünyaya göstərdi. Azərbaycanın igid əsgər və zabitləri Vətən müharibəsində elə bir şanlı tarix yazdılar ki, bu qəhrəmanlıq dastanı Azərbaycan var olduqca yaşayacaq, gələcək nəsillər tərəfindən öyrəniləcək və şəhidlərimizin əbədiyaşar xatirələri daima yad olunacaqdır.

Şəhid ailələrinin üzvləri dövlət tərəfindən onlara göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz təşəkkürlərini bildiriblər.

# YAP Nəsimi rayon təşkilatında qazilərlə görüş keçirilib




YAP Nəsimi rayon təşkilatının qərargahında partiyanın fəal gəncləri ilə Vətən müharibəsində yaralanmış qazilərlə görüş keçirilib. YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərdən bəhs edib. O, ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda hərbi əməliyyatlarda əsgər və zabitlərimizin göstərdikləri şücaətlərin hər birimizdə sonsuz iftixar hissi doğurduğunu qeyd edib.





Sonra çıxış edən Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin üzvü Salman Salmanov Vətən müharibəsində ordumuzun göstərdiyi şücaətdən bəhs edərək Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin eləcə də, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid və qazilərimizə böyük diqqət və qayğı göstərdiklərini bildirdi. Daha sonra çıxış edən Nəsimi rayon Ağbirçəklər Cəmiyyətinin sədri Zərifə Quliyeva işğal altında olan torpaqlarımızın Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasəti ilə cəngavər oğullarımız tərəfindən azad edildiyini və bu Zəfərin Azərbaycan tarixinin ən şanlı səhifəsi olduğunu qeyd etdi.Tədbir çıxış edən Qarabağ müharibəsi veteranları, əlilləri, şəhid ailələri İctimai Birliyinin Nəsimi rayon şöbəsinin sədri Azər Quliyev və Vətən müharibəsi qazisi Rüfət Salmanov şəhid ailələri və qazilərə göstərilən diqqət və qayğıdan bəhs etdilər.

Öz növbəsində qazilər göstərilən diqqət və qayğıya görə təşəkkürlərini bildirib, həmçinin 44 günlük Vətən müharibəsindən, xatirələrindən, Azərbaycan ordusunun qüdrətindən və əzmindən bəhs etdilər.Vətən müharibəsi qazilərinin sosial dəstəklə təmin olunmaları sahəsində işlərin bundan sonra da davam edəcəyi bildirildi.

*Nəzakət ƏLƏDDİNQIZI*

# YAP Səbail rayon təşkilatı şəhid ailələrini ziyarət edib



Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatı İkinci Qarabağ müharibəsində ərazi bütövlüyümüz uğrunda canlarından keçən iki şəhidin ailəsinə baş çəkib.

YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev və aparat əməkdaşları Vətən müharibəsi şəhidləri - Yusif Budaqovun və Fərid Əliyevin ailə üzvləri ilə görüş keçirib.



Görüşdə qəhrəman şəhidlərin ailə üzvləri ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürlərini bildirib, dövlətin onlara göstərdiyi diqqət və qayğıdan razılıqlarını ifadə ediblər.

# YAP Qazax rayon təşkilatının fəalları şəhidlərin məzarlarını ziyarət ediblər



YAP Qazax rayon təşkilatı Vətən müharibəsinin şəhidləri Məmmədov Əvəz Elnur oğlunun və Məmmədov Məhəmməd Zakir oğlunun şəhid olmalarının ildönümü ilə əlaqədar məzarlarını ziyarət edib, önünə gül dəstələri düzmüşlər. Daha sonra hər iki şəhid ailələrində olmuşlar. Şəhidlərin ailə üzvləri dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

*Rəfiqə*

ANALİTİK + AKTUAL

# Şirin quyruğu dartıldı, hətta qopardıldı

## İranın XİN rəhbərinin Moskva səfərindən çıxarılan nəticələr nəyi söyləyir?

**İranın xarici işlər naziri Moskvada - Kremlin divarları arasında soyuq qarşılandı. Hətta belə deyək, Rusiya prezidenti Vadimir Putin görüşə vaxt tapa bilmədiyini bəhanə edərək iranlı həmkarı İbrahim Rəisiyə bu sözlərini çatdırmağı xahiş edib: "Bütün məsələlər 2+2 formatında Rusiya, Türkiyə, Azərbaycan və Ermənistan arasında həll olunub".**

İranın XİN başçısı Əmir Abdullahiyan rusiyalı həmkarı Sergey Lavrovun vasitəsi ilə Putinə "Cənubi Qafqaz ölkələri üçün yaranan yeni təhlükə" adı altında "Tehran-İrəvan-Moskva" üçlüyü yaratmaq təklifini əks etdirən məktub yolladı. Lakin göründüyü kimi, Tehranın guya Cəbuni Qafqaz regionuna "axın" edən "sionist" və "terrorçu" iddiaları da cavabsız qaldı.

O cümlədən, Kreml Abdullahiyana xatırlatdı ki, Qarabağda Rusiya və Türkiyənin iştirakı ilə Birgə Monitorinq Mərkəzi yerləşdirilib və bu Mərkəz dronlar, peyklər də daxil olmaqla bütün ərazini müşahidə edə bilən vasitələrlə təchiz edilib. Yəni Qarabağda fəaliyyət göstərən rus və türk zabitlərinə nələrin baş verdiyi kifayət qədər aydın görünür. Bu baxımdan, Tehranın şikayətləri sadəcə geriyə qaytarıldı.

### İranın son zamanlarda Cənubi Qafqaz regionunda cərəyan edən mümkün dəyişiklər fonundakı cəhdləri puç oldu və bunu məhz Moskva görüşü köklü şəkildə isbatladı

Daha bir maraqlı məqam: İran Türkiyə və Azərbaycan Hərbi Dəniz Qüvvələrinin Xəzər dənizində birgə təlimləri ətrafında da narazılığını ifadə etsə də, Moskva bu narazılığın da əbəs olduğunu bəyan etdi. Təkcə bir faktla - İran Xəzər dənizinin bölünməsi üzrə "Həştərxan bəyannaməsini" ratifikasiya etməyib, yəni təsdiq imzası atmayıb və Azərbaycan öz sularında hansı addımları istəsə ata bilər, ona görə də günahı özünüzdə axtarmalıdır.

Ümumiyyətlə, İranın son zamanlarda Cənubi Qafqaz regionunda cərəyan edən mümkün dəyişiklər fonundakı cəhdləri puç oldu və bunu, məhz Moskva görüşü köklü şəkildə isbatladı. Halbuki, Tehran özünü dünyanın diplomatiya meydanında rüsvat etməyə də bilərdi - əgər əzələ nümayişi göstərməsəydi və baş verən reallıqlara müsbət tondan yanaşaraq doğru seçim qərarları versəydi. Amma belə etmədi və bir daha hadisələri xronoloji sıralama ilə təhlil edək. Məsələ ondadır ki, İran o zaman hərəkətə keçmək qərarını verdi ki, artıq Bakı Gorus-Qafan yolunun Azərbaycanın suveren ərazisinə daxil olan hissəsində sərhəd-buraxılış məntəqəsini və xüsusi təyinatlı çevik polis qüvvələrini yerləşdirmişdi. Hələ Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı vaxtlarda minlərlə İrana məxsus yüsk maşınları qeyri-qanuni olaraq Qarabağa daxil olurdular, halbuki rəsmi Bakı dəfələrlə bu məsələ ilə bağlı Tehrana öz kəskin narazılıqlarını çatdırırdı. Məhz 44 günlük İkinci Qarabağ müharibəsindən sonra belə, İrana məxsus furalar dövlətlərarası sərhədi pozaraq Laçın dəhlizi vasitəsi ilə Rusiya sülhməramlılarının nəzarət etdikləri ərazilərdən Qarabağa daxil olmaqda davam edirdilər.

### Xatırladaq:

2021-ci ilin 11 sentyabr tarixində İranın Azərbaycandakı səfiri XİN-ə çağrıldı və ona nota təqdim edildi, bildirildi ki, bu kimi qeyri-qanuni addımlar Bakı üçün narahatlıq doğurur. Təkcə 10 avqust-11 sentyabr aralığında Laçın dəhlizindən 58 İran furası keçərək sərhədlərimizə və suverenliyimizə qarşı, sözün əsl mənasında, həyasızlıq nümayiş etdirmişdi. Amma Tehran notaya əhəmiyyət vermirdi. Nəticədə, sentyabrın 12-dən başlayaraq Qubadlı rayonunun Eyvazlı buraxılış məntəqəsində bütün İran yük maşınlarının, eləcə də sürücülərinin ciddi şəkildə yoxlanılmalarına başlanıldı, o cümlədən, vergi ödəmələri tələb edildi. Sentyabrın 15-də isə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin sərhədçiləri tərəfindən İranın iki vətəndaşı saxlanıldı. Onlar Rusiya sülhməramlılarının nəzarət etdiyi Laçın dəhlizindən Azərbaycan ərazilərinə qeyri-qanuni keçid etmişdilər. Tehran dərhal bu insidentə reaksiya verdi. Ölkənin XİN rəsmisi Səid Xətibzadə bəyan etdi ki, İran situasiyanın inkişafını izləməyə davam edir və ümid edir ki, iranlı sürücülər dərhal azadlığa buraxılacaqlar. Təbii ki, bu da Tehranın növbəti həyasızlığı kimi necə deyərlər, "dəftərə" yazıldı. Amma buna baxmayaraq, hər iki sürücü hələ də Bakıda həbsdə qalmaqdadırlar. Nəticədə, İran tərəfi, sadəcə, aqressivləşdi və bu aqressivlik açıq-aydın sübuta yetirdi ki, özünü zaman-zaman boğazından yuxarı Azərbaycanın "dostu" elan edən müsəlman İran həqiqətə qalanda Ermənistana qardaşlıq edir, özü də 44 günlük müharibədə Azərbaycanın Cənubi Qafqaz regionundakı reallıqları dəyişməsi Tehranı əməlli-başlı qıcıqlandırır. Həm də ona görə ki, artıq Azərbaycan regiondakı kommunikasiyaların blokadadan çıxarılması prosesində diktə edən tərəfə çevrilib. Daha dəqiq desək, Tehranın gəldiyi nəticəyə görə 44 günlük müharibənin Azərbaycan üçün qələbə ilə nəticələnməsi İranın Ermənistanla nəqliyyat və iqtisadi bağlantılarını təhlükə altına alır. Məhz iranlı yük maşınları sürücüləri ilə bağlı yaşanan insident buna aşkar sübutdur.

Bakının siyasi-diplomatik bəyanatlarını qulaqardı edən İran tərəfi bir az da irəliyə gedərək rəsmi şəxsləri, parlament deputatları vasitəsi ilə Azərbaycanla hədə dili ilə danışmaq planını işə saldılar və burada əsas ittihamlar İsraillə bağlı oldu. Guya bu minvalla Azərbaycanda "sionizm" cücərtilərinin olduğunu iddia edən Tehran mənsubları həmçinin Yaxın Şərqdən olan "terrorçuların" da guya Türkiyə tərəfindən regiona yerləşdirildiyini bəhanə olaraq irəli sürdülər. Həmin bəhanə ilə də Azərbaycanla sərhəd bölgələrə hərbi təlimlər adı altında ordu birliklərini toplamağa başladılar.

### Ermənistanın XİN başçısı Ararat Mirzoyan iranlı həmkarını Moskvaya necə yolladı?

Hadisələr fonunda İrana Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan rəsmi səfər edir və o, 9/10 noyabr 2020-ci il üçtərəfli bəyanatı unudaraq İranı "yuyulmamış qaşıq" kimi ortaya atıb, proseslərə cəlb etməyə səy göstərir. Daha dəqiq desək, regionda kommunikasiya marşrutlarının yenidən işə düşməsi üçün öz ölkəsi daxil, Azərbaycan, İran və Rusiyanın da danışıqlara qatılması "vacibliyindən" dəm vurur.

Və maraqlıdır ki, Ararat Mirzoyanla görüşündən sonra İranın XİN rəhbəri dərhal Moskvaya, Sergey Lavrovla görüşməyə yollanır. Danışıqların sonrakı prosesləri barədə isə artıq məqalənin başlanğıcında qeydlər edilib.

### İranın bu qədər təlaşlar keçirməsinin əsas səbəblərindən biri də ölkənin Azərbaycanla sərhədlərinin bərpa olunmasından sonra Azərbaycanın İranın şimal rayonları ilə aktiv ticarət perspektivlərinin artması faktorudur

Təbii ki, Tehranın cəhdlərinin heç birinin baş tutmayacağı əvvəldən bəlli idi və İran rəhbərliyinin nə qədər pafoslu, bəlağətli bəyanatlar səsləndirmələrinə baxmayaraq, onlar yerlərindəcə addımladılar, hətta geriyə doğru da getdilər.

Ancaq daha bir nüansı da son olaraq qeyd etmək yerinə düşərdi. İranın bu qədər təlaşlar keçirməsinin əsas səbəblərindən biri də ölkənin Azərbaycanla sərhədlərinin bərpa olunmasından sonra Azərbaycanın İranın şimal rayonları ilə aktiv ticarət perspektivlərinin artması faktorudur. Söhbət azad edilmiş rayonlarımızın İranın 30 milyon azərbaycanlı soydaşlarımızın yaşadıqları şimal bölgələri ilə ticari-iqtisadi münasibətlərinin qurulması mümkünlüyündən gedir.

İranda yaşayan azərbaycanlıların milli özünüdərki, onların Qarabağ münaqişəsində, istər 2016-cı ilin Aprel müharibəsində, istərsə də 44 günlük İkinci Qarabağ müharibəsində nümayiş etdirdikləri dəstəyi bu gün də xatırlamaqdayıq. Məsələn, 44 günlük müharibə zamanı İran-Azərbaycan sərhədlərinə axışan soydaşlarımız əllərində Azərbaycan bayraqları tutaraq Bakının Ermənistan işğalçılarına qarşı əks-hücum əməliyyatlarını alqışlayaraq izləyirdilər. Bu baxımdan, İrannın siyai isteblişmenti olduqca ehtiyat edirlər ki, azərbaycanlı soydaşlarımız bu dəfə daha qəti tələblər irəli sürməklə hətta referendum çağırışları ilə küçələrə axışa bilərlər. Və çox yəqin ki, Qərbin timsalındakı nəhəng siyasi oyunçular bu məsələyə çox ciddi yanaşma tərzi nümayiş etdirmək şanslarını əllərindən buraxmazlar.

Sonda isə, hadisələr yeni-yeni başladığı zamanlarda İranın əyalət mollalarından birinin "şirin quyruğu" misalının, sadəcə, havaya atılmış söz olduğunu istehza ilə vurğulaya bilərik. Yəni iddia edilirdi ki, "şirin quyruğunu dartıb onu qəzəbləndirmək" olmazmış, fəqət nəinki "şirin quyruğu" dartıldı, üstəlik, qopardıldı...

İndi İranın XİN rəhbəri - ağaye Əmir Abdullahiyanın Moskvadan üzüqara dönməsi və təyyarəsinin trapından Tehranın Xomeyni adına hava limanının həndəvərinə necə daxil olması başqa mövzudur. Amma buna baxmayaraq, fikirlərimizi İranın XİN rəhbərinin Tehran aeroportundakı açıqlaması ilə başa çatdırırıq: "Tezliklə Bakını ziyarət etmək arzusunda olduğumu bildirirəm. Müdriklik və ağılla bizim yaxın qonşularımız - Azərbaycan və Ermənistanla bütün problemlərin yaxşı həllini tapmaq üçün".

**Rövşən RƏSULOV**









# "Müxalifət gündəmdə qalmaq üçün hər cür yaramaz əməllərdən istifadə edir"



"Müxalifətin qarışqanı fil eləməsi ümumən qəbul ediləndir. Amma gərək o qarışqanın da həqiqətən mövcudluğunu sübut edib, sonra onu böyüdüb fil etmək haqqında düşünəsən. Müxalifət adlandırılan siyasi oyunbazların filə döndərmək istədikləri qarışqa yoxdur". Bunu "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, müxalifət təmsilçiləri özlərini reklam etmək və gündəmdə qalmaqdan ötəri hər cür yaramaz əməllərdən istifadə edirlər: "Onlar məhz bu əməllərinə görə xarici qüvvələr tərəfindən maliyyə yardımları alırlar. Xarici pozucu qüvvələr öz məkrli istəklərini həyata keçirmək üçün müxalifət təmsilçilərindən bir vasitə kimi istifadə edirlər. Xaricdə olan bəzi qüvvələr Azərbaycan dövlətinin inkişafına qısqanclıq hissi ilə yanaşır, əldə olunan uğurlardan narahat olurlar. Ancaq birmənalı şəkildə demək olar ki, nə xaricdə olan bəzi qüvvələrin, nə də daxildə olan müxalifətin ölkəmiz ilə bağlı məkrli istəkləri heç vaxt baş tutmayacaqdır. Təəssüflər olsun ki, müxalifət qüvvələri Azərbaycanı istəməyən qüvvələrin maraqlarına xidmət edirlər. Amma onların nə deməsindən və nə etməsindən asılı olmayaraq bu qüvvələr heç nəyə nail olmayacaqlar. Çünki müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur və heç zaman da onlara ictimai dəstək olmayacaq".

***Gülyanə***

---

# "Revanşist qüvvələr narazıdırlar və hədəf olaraq Paşinyanı göstərirlər"

"Əlbəttə ki, Ermənistanda baş verən heç bir hadisə təsadüfi deyil, gözləniləndir. Çünki, bu ölkə bir il öncə burnu ovularaq Azərbaycanla müharibədə məğlub edilib və məğlub edilməklə də qalmayıb, sadəcə olaraq bu, Ermənistan dövlətinin məğlubiyyəti deyildi, bütün dünya erməniliyinin Azərbaycan qarşısında böyük məğlubiyyəti idi. Ona görə də erməni cəmiyyəti özünə gələ bilmir." Bu sözləri SİA-ya verdiyi açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.Onun sözlərinə görə, erməni cəmiyyətinin bəlli bir kəsimi hesab edir ki, bu məğlubiyyətin əsas səbəbkarı Nikol Paşinyandır və əlbəttə ki, həmin kəsim aktiv siyasi kəsim olduğuna görə də ölkə içində prosesləri hərəkətləndirmək imkanları var və bu baxımdan Paşinyana qarşı ayaqlanmalar baş verir, bunlar da gözləniləndir."Əslində, hamımız bilirik ki, Azərbaycanın qələbəsi sadəcə Nikol Paşinyan üzərində deyil, qeyd etdiyim kimi, bütün dünya erməniliyi üzərindədir və ermənilərin bu məğlubiyyətinin də səbəbkarları sırasında əvvəlki prezidentlər Serj Sarkisyan və Robert Koçaryan var. Yəni, bu adamlar yanlış siyasət yürüdərək illərlə erməni xalqını ac-yalavac saxladılar, onlara zülm etdilər, onları yalanlarına inandırmağa çalışdılar, nəticə etibarı ilə iflas olmuş bir Ermənistanı Nikol Paşinyana buraxıb getdilər. Paşinyan da təbiidir ki, belə bir iflas içində olan ölkəni Azərbaycana qarşı səfərbər edə bilməzdi və bilmədi də. Sadəcə olaraq onu qızışdırırdılar, o da naşı bir siyasət adamı olduğuna görə bəzən həddini aşan açıqlamalar verirdi. Amma sonradan baş verən proseslər, yəni Ermənistanın Azərbaycana növbəti həmləsi və Azərbaycanın əks hücuma keçməsi onlara kimin kim olduğunu göstərdi.İndi ölkə içindəki qüvvələr də bu durumdan Paşinyana qarşı istifadə etmək istəyirlər. Halbuku, onlar bir şeyi unudurlar ki, bu ilin yayında keçirilmiş seçkilərdə Ermənistan əhalisinin böyük əksəriyyəti məhz Nikol Paşinyana səs verib. Yəni, bu o deməkdir ki, ölkə əhalisinin böyük əksəriyyəti Nikol Paşinyanın müharibədə uduzmasını həzm edir, qəbul edir, onunla barışır və bundan sonrakı mərhələdə Azərbaycanla normal münasibətlərin qurulmasında maraqlıdır. Amma, o revanşist qüvvələr bundan narazıdırlar və ona görə də hədəf olaraq Paşinyanı göstərirlər. Əslinə qalanda onların məqsədi yenə də köhnə qaydaları, köhnə münasibətləri geri gətirməkdir.Əlbəttə ki, qeyd etdiyim kimi, Ermənistan əhalisinin böyük əksəriyyəti Paşinyana səs verməklə, əslinə qalanda həmin revanşist q üvvələrə də öz sözünü demiş olub və bu baxımdan Paşinyana qarşı ayaqlanmalar ciddi nəticə verməyəcək. Amma, istənilən halda biz dinc qonşuluq münasibətlərinə üstünlük veririk. Ermənistanda əgər kimlərsə ağılla davranıb Azərbaycanla normal münasibətlərin qurulmasına töhvə verəcəksə, əlbəttə ki, o adamlara biz də əlimizi uzadacağıq. İstənilən halda Ermənistanın sabitləşməsi, normallaşması, Azərbaycanla nəhayət ki, sülh müqaviləsini bağlaması və dinc qonşuluq münasibətləri mərhələsinin başlaması həm bizə, həm də onlara çox faydalı olardı", deyə Azər Həsrət bildirib.



***İnam Hacıyev***

---



İLHAM

# Qoçuların meydanı daralır

**Dünya yaranandan bu günə qədər cəmiyyətlərdə güclüsü-gücsüzü, varlısı-kasıbı, igidi-qorxağı, mərdi-satqını, eləcə də lotusu, qoçusu, bir sözlə, hər görkəmdə və xarakterdə insanları olub. Bu baxımdan deyilir ki, nə qədər bəşəriyyətdə insan yaşayırsa, o sayda da fərqli xarakterə malik insanlar mövcuddur. Pərdənin arxasında dayanıb, Azərbaycanda insan xarakterini öyrənmək üçün müşahidələr aparsan, qəliz-qəliz maraqlı və diqqətçəkən məlumatlar toplamaq olar. Başlıcası aydın olar ki, cibi pullu, kreslolu vəzifə sahibləri, sözün həqiqi mənasında, həm lotuluq, həm də qoçuluq edirlər. Maddi imkanlarına və əliuzun olmalarından istifadə edərək, imkansız, arxasız insanlara yuxarıdan aşağı baxırlar, bəzən hikkələrinə və iddialarına söykənib, təhqir və söyüş elementlərindən də geninə boluna istifadə edirlər. Yəni eynən lotular kimi: fırıldaqçı, cüvəllağı, hikkəli və iddialı, kələkbaz, fırıldaqçı.**

Lotuluq edənlər və onların əndazələri aşan əlləm-qəlləm əməllərindən söz açmazdan əvvəl onu da qeyd etmək lazımdır ki, günümüzdə rast gəlinən personajlardan biri də qoçuluq edənlərdir. O düzdür ki, bugünkü qoçular 20-ci əsrin əvvəllərində Bakıda yaranan dəstə-tifaqlı qoçuların cır ünsürləridir. Məlumdur ki, qoçular ötən əsrin əvvəllərində Bakı şəhərində neft sənayesinin inkişaf etdiyi bir dönəmdə meydana gəlib.

İri neft maqnatları var-dövlətlərini mühafizə etmək üçün qoçuların imkanlarından istifadə ediblər. Bu da neft sahibkarlarının polislərə bir o qədər güvənməmələri ilə bağlı idi. O dövrdə qoçular o dərəcə də əl-qol açıb, bir növ harınlamışdılar ki, küçədə çəkinmədən insanları təhqir edir, alçaldır, öldürürdülər. Tarixi məlumatlara görə, Nobel qardaşları da özlərini və əmlaklarını qorumaq üçün silahlı qoçu dəstələrindən istifadə ediblər. "O olmasın, bu olsun" filmində Üzeyir Hacıbəyli qoçu Əsgərin timsalında qoçunun tipik formasını tam şəkildə müasir Azərbaycan cəmiyyətinə göstərməyi bacarıb. Kinoda nümayiş olunduğu kimi, qoçu bəzən qəddar, bəzən isə qorxaq olur. Hətta polis görəndə qaçıb gizlənir, mübahisələri kəsib susur. Bəzən isə mauzeri ilə məzlum insanlara atəş açır, onları qorxu altında saxlamağa çalışır. Kommunistlər hakimiyyətə gələndən sonra qoçular bir sinfi düşmən olaraq məhv edildi. Buna baxmayaraq, ötən yüz il ərzində istər lotuluq edənlər, istərsə də qoçuluqdan dəm vuranlar gün işığına çıxıb özlərinin kimliklərini nümayiş etdirməkdədirlər.

Deyək ki, biri bazarda, dükanda əlini belinə qoyub " filan məhsulların və ya tələbat mallarını monopoliyaya mən almışam, lap əcəb etmişəm" deyə hikkəli şəkildə bəyan edir. Bax, bu, qoçuluğun və lotuluğun əlamətidir. Digər misal, hər kəsə bəllidir ki, "Tikinti və şəhərsalma Məcəlləsi"nin 80-ci maddəsinə görə, müvafiq sənədlərə malik hər bir vətəndaş rayon və şəhər icra hakimiyyətlərini yazılı məlumatlandırmaqla özünə fərdi yaşayış evi tikə bilər. İcra hakimiyyətlərinin qoçuları isə vətəndaşlarda məmnunluq yaradan qanunların icrasına əməl edilməsinə imkan vermirlər. Kimsə həyətyanı sahəsində tikintiyə başlayan kimi başlarının üstünü kəsdirir və "Allah avand eləsin" əvəzində əllərini bellərinə qoyub, "mani-mani" deyib, pul tələb edirlər. Pul da ki, 10 min manatdan 30 min manata qədər. Vay o günə ki, tələb yerinə yetirilməsin, tikinti aparmağa hazırlaşan insanın halı fəna olacaq. İcra hakimiyyətinin mauzersiz qoçuları şillə təpiyə və təhqiramiz sözlərdən geninə boluna istifadə etməklə tikinti aparmağa hazırlaşan şəxsi peşman edəcəklər.

Ümumiyyətlə, mövcud reallıqlar ondan ibarətdir ki, bu gün icra hakimiyyətlərində əllə idarə olunan qoçuların sayı kifayət qədərdir. Onlar arasında elələri var ki, heç icra hakimiyyətlərinin ştatlı əməkdaşları da deyillər. Sadəcə, o şəxsləri kiminsə evini sökmək, hansısa məzlumu döymək və ya biçarə, imkansız bir ailəyə zərər vermək üçün "işə" götürürlər. Məvacibləri isə görə biləcəkləri qoçuluğa bağlıdır. Görünən isə ondan ibarətdir ki, bu qoçu dəstəsinin imkanları çox geniş olur. Bu isə onu deməyə əsas verir ki, boyük qoçular onları ən yüksək formada mükafatlandırırlar. Bu cür qoçular həkimlər arasında, dövlət yol polisi əməkdaşları sırasında, biznesdə dolaşan işbazlar arasında az deyil. O gün dedilər ki, Binə ticarət mərkəzində hərci-mərclik hökm sürür. Yəni qoçular lotularla birləşib, xırda ticarətlə məşğul olan sahibkarları incidirlər. Həm də iddia etdilər ki, qoçuların başında ticarət mərkəzinin sahibi Kəbirə xanımın bacısı oğlu qoçu Bəhruz dayanır. Bığsız, keçəl, cüssəli qoçulardan olan Bəhruz o boyda ticarət mərkəzini fırladır. Kəbirə xanımın qocaldığından istifadə edən qoçu Bəhruz hər yerdə deyir ki, yaxın vaxtlarda bu ticarət mərkəzinin sahibi olacaq. Xırda sahibkarlıqla məşğul olanlar da çox narahatdırlar. Deyirlər ki, Bəhruz idarəetməni tam əlinə alsa, vay onların halına. Bir sözlə, Binə ticarət mərkəzində çox pis-pis hadisələr baş verməkdədir. Bu barədə geniş və əhatəli məlumatı növbəti saylarımızda məlumat verməyə çalışacağam.

Hələlik isə, onu deməliyəm ki, həqiqətən də bu gün qoçu və lotular at oynadırlar. Hətta atla eşşəyin izi bilinmədiyi kimi, artıq lotularla qoçuların da əməlləri bir-birinə qarışıb.

# İran qazı Avropaya Azərbaycan vasitəsilə ötürülə bilər

**Rusiya Siyasi İnformasiya Mərkəzinin aparıcı analitiki İvan Pyatibratov "Caliber" analitika mərkəzinə müsahibədə İranın Xəzərdə kəşf etdiyi nəhəng qaz yatağı, regionda qaz istehsalı və ixracı imkanları ilə bağlı maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqim edirik.**

***- İran Xəzər dənizində bənzərsiz bir yataq kəşf etdiyini elan etdi və Avropa qaz bazarının 20%-ə qədərini təchiz etməyi qarşısına məqsəd qoydu. "Çalus" yatağındakı ilkin qiymətləndirmə işləri, yatağın ehtiyatlarının təxminən 3,4 trilyon kubmetr olduğunu göstərdi. İran yeni qaz hegemonu olacaqmı?***

- Əlbəttə, kağız üzərində, iranlı həmkarların qiymətləndirmələrinə tam etibar etsəniz, o zaman ideal təsadüf şəraitində İran həm Rusiya, həm də Qətər və digər dövlətləri bir çox cəhətdən sıxaraq dünyanın ən güclü qaz dövlətlərindən birinə çevrilə bilər. Əvvəla, ilk növbədə, iranlı analitiklərin bəyanatını yoxlamaq yaxşı olardı, ikincisi, yəqin ki, bir tərəfdən belə böyük həcmdə qaz satma ehtimalını çətinləşdirəcək hər cür geosiyasi maneələr var, üçüncüsü, bu yatağı bu qədər həcmdə qaz hesab etsək, ümumiyyətlə, hasil etməyin mümkün olacağının lehinə danışmaq olmaz. Almaq və satmaqdan başqa, çox sayda amildən asılı olan çox çətin bir vəziyyət var.

***- Bu layihə həyata keçirilsə, Rusiyanın Avropadakı iqtisadi maraqları nə qədər zərər çəkəcək?***

- Bu yataqdan qaz Avropa ölkələrinə gedərsə, Rusiyanın Avropadakı maraqları zərər çəkə bilər. Amma bu qaz təkcə Avropaya gedə bilməz, yəni İran qazına çox maraq göstərən Çin də başqa istiqamətə çevrilə bilər. Prinsipcə, çinlilər İrana xeyli sərmayə qoyurlar.

Rusiya Avropada qaz tədarükünün mütləq çempionudur və İrandan Avropaya böyük bir qaz axını olacağı təqdirdə bu, Rusiyanın maraqları üçün ciddi rəqabət yaradacaq. Bəli, Rusiyanın Avropa bazarında rəqibləri var, amma oradakı həcmlər, həqiqətən də, Rusiya maraqlarına zərər vurmaq üçün yetərli deyil.

İran qazı Çinə gedərsə, bu yenə də Rusiya Federasiyasının maraqlarına uyğun deyil. Bəli, bunu



bəzi dövlət maraqları mövqeyindən götürsək, əlbəttə, İran dünya qaz bazarındakı payını artırmasaydı, Rusiya üçün daha yaxşı olardı.

***- Sizcə, Çalus yatağından İran qazının əsas tədarükçüsü Çin ola bilərmi?***

- Mənə elə gəlir ki, əgər bu sahə müəyyən miqyasda daha da inkişaf edəcəksə, Çinsiz mümkün deyil. Çünki dediyim kimi, Rusiya iştirak edə bilərdi, amma bunun üçün sərfəli deyil. Çin, öz növbəsində, karbohidrogenlərin tədarükündə çox maraqlıdır. Çin fərqli parametrlərə görə işləyə bilər, məsələn, bu sahənin bütün inkişafını tamamilə öz üzərinə götürür. İranın ərazi sularında yerləşdiyinə görə, bu işin heç kimlə əlaqələndirilməsi lazım olmayacaq. İran təbii ki, buna icazə versə, sahənin inkişafına heç bir manea olmayacaq.

Digər tərəfdən, Çin qaz nəqlinə kömək edə bilər, o cümlədən Türkmənistan üzərindən, məsələn, İrandan Türkmənistana boru xətti çəkmək olardı. Ancaq burada Çin üçün deyil, İran və Türkmənistan üçün bir fürsət yaranır. Çünki belə bir layihəni Çin yalnız endirim olacağı təqdirdə həyata keçirə bilər. Çin artıq İranda endirimlərdən istifadə edir, lakin böyük bir investorun müəyyən şərtləri diktə etmək hüququna malik olması səbəbindən. İran qazı Çinə Türkmənistan qazından daha ucuz başa gələ bilər ki, bu da Türkmənistan üçün əlverişsizdir. Bu, birincisi, bu iki dövlət arasındakı münasibətləri ağırlaşdıra bilər, ikincisi, bu cür qarşılıqlı əlaqənin ümumi iqtisadi məqsədəuyğunluğunu, yəni İran qazının nəqli məsələsini öz üzərinə götürərək Türkmənistanın nə fayda əldə edəcəyini şübhə altına ala bilər. Belə bir məqam da var.

Başqa bir məsələ, Çinin bu bölgədə çox geniş miqyasda olmasıdır və çox güman ki, siyasi təsiri sayəsində bu potensial münaqişəni də həll edə biləcək.

***- Bu sahə inkişaf etdirilsə, qaz Avropaya necə gedəcək? Azərbaycan, Gürcüstan, Türkiyə vasitəsilə? Yoxsa İrandan Türkiyəyə və oradan Avropaya quru qaz kəməri çəkilə bilər?***

- Bu seçim mümkündür, çünki İrandan Türkiyəyə qaz kəməri var. Düzdür bu kəmər demək olar ki, tamamilə doludur. İran Türkiyəyə qaz verir və Avropaya müxtəlif yollarla çatır.

Avropa bazarına əlavə həcmlər göndərmək bunun üçün yeni infrastrukturun qurulmasını tələb edəcək. İranın təbii qaz kəməri çəkmək üçün yeni bir layihə üçün pulu yoxdur, amma Türkiyə yenə də bəzi tərəfdaşları cəlb edə bilər.

Alternativ variant var - bu kəməri Azərbaycanın vasitəsilə TANAP və TAP-a bağlamaq. Burada quru yoluna üstünlük verilə bilər. Xəzər dənizindən keçəcəyi az inandırıcıdır. Ancaq burada yenə də çətinlik bu marşrutun tam olaraq necə qoyulacağına bağlıdır. Yəni, sahil suları boyunca gedərsə, prinsipcə heç bir siyasi problem olmamalıdır, çünki dövlətlər bütün su sahəsinin ekologiyasına təhlükə yaratmaq istisna olmaqla, sahil sularında hər şeyi etməkdə sərbəstdirlər. Mümkündür, amma çox uzun bir yoldur. Yəni marşrutu birbaşa qoymaq daha yaxşı olardı - Xəzər qaz dəhlizi kimi olardı, amma başqa bir məqam var - yəqin ki, Rusiya ekoloji təhlükəyə görə buna qarşı olacaq.

***- Avropanın özü İrandan qaz kəməri çəkməkdə maraqlıdırmı?***

- Avropa qaz təchizatını şaxələndirmək istəyir. Amma şaxələndirmə dedikdə, təbii ki, Avropada Rusiya qazının hegemonluğunu azaltmaq istəyirlər. Avropanın özü, bəli, İran qazı ilə maraqlanır, amma bu layihəyə sərmayə qoymağa hazır olub-olmaması çox böyük bir sualdır, çünki İran bəzən sanksiya altındadır, bəzən sanksiya altında deyil, daxili siyasətfə, iqtisadiyyat problemlər var. Yeni İran sahəsini kim təmin edəcək? Avropa İttifaqının özü? Aİ Pul verməyəcək. Bəzi ayrı-ayrı şirkətlər pul verə bilər, ancaq ABŞ-ın sanksiyaları altında qalma təhlükəsi üzündən İrana böyük sərmayə qoyma riski daşıyacaqlar. Məsələn, Çin sanksiyalardan qorxmur, əksinə, sanksiyaların qarşısını almaq üçün bəzi üsullara əl atır. Ümumiyyətlə, Avropa hər hansı bir qazı istəyir- həm Rusiya, həm İran, həm də digər ölkələrdən gələn qazı.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# İranlı nazirin "yandırdığı" körpülər…

**Gərək ki, amerikalı yazar Raul Ausnerin fikridir, deyir ki, sənə xəyanət edəni bağışlasan, o səndən yenə istifadə edər; çünki xəyanət bir ruh halı deyil, xarakterin tökülüş formasıdır. Mənim burada amerikalı yazarın yazdığı bu cümlədə bəzi sözlərin yerini səhvən dəyişik yazmaq ehtimalım olsa da, amma onun fikrində heç bir təhrifə yol vermədiyimə əminəm.**

Beləliklə, ötən gün İranın yollar və şəhərsalma naziri Rostam Qasemi bəyan edib ki, guya Ermənistanla birgə yapacaqları infrastruktur layihələri bölgənin tranzit xəritəsini tamamilə dəyişdirəcək. ( hə, burda deyirlər ey qolunuza çöpdən dirək)

Qeyd edək ki, Qasemi bu barədə "Twitter"dəki mikrobloqunda yazıb.

Deməli, Qaseminin yazdığına görə, o öz müavinlərinə həvalə etdiyi xüsusi missiya sayəsində Qafqaz dəhlizi və Horduzdan Ermənistana gedən yol problemi həll olunacaq və tezliklə bu bölgənin tranzit xəritəsi tamamilə dəyişdiriləcək.

Onun sözlərinə görə, Tehran üçün bu problemi yaradanlar hamısı bilməlidir ki, İrana gedən yolu bağlaya bilməyəcəklər. Bununla yanaşı, onlar üçün "yanmış körpüləri" bərpa etmək bundan sonra çətin olacaq. (...burda deyiblər ey " anan ölsün, İrəmazan")

Təbii ki, ermənilər də Qaseminin bu fikirlərindən yerindəcə yararlanmağı "bacarıblar". Məsələn, onlar iranlı nazirin bunları deməklə Gorus-Qafan magistral yolunda polis əməkdaşlarının guya İranın ağır yük maşınlarının sürücülərindən gediş haqqı tələb edən Azərbaycanın hərəkətlərinə işarə etdiyinə "əmindirlər".



Yeri gəlmişkən xatırladaq ki, bir müddət bundan əvvəl İrəvanda "Fars Körfəzi - Qara dəniz" beynəlxalq nəqliyyat dəhlizinin yaradılması perspektivlərini müzakirə etmək üçün işçi qrupunun növbəti iclası keçirilib. Onu da xatırladaq ki, bu layihədə Ermənistan, Bolqarıstan, Gürcüstan, Yunanıstan rəsmən iştirak edirlər. Qeyd edək ki, Ermənistan paytaxtında keçirilən budəfəki görüşdə iştirakçı ölkələr sazişin yeni layihə variantını hazırlayıblar. Ermənilərin dediyinə görə, guya bu dəhliz Ermənistana tədarükləri şaxələndirməyə, İran limanlarından sərbəst istifadə etməyə və mühüm tranzit mərkəzinə çevrilməyə imkan verəcək. Necə deyərlər, uğurlu olsun

No! Gərək ki, xatırlamış olarsınız, "Fars körfəzi - Qara dəniz" beynəlxalq nəqliyyat dəhlizinin "işə salınması" məsələsi hələ 2016-ci ildə ilk dəfə İran tərəfindən irəli sürülüb. Həmən ərəfədə usta və mühəndis heyəti ilə yığışıb İrəvana gələn İran rəsmiləri burada Ermənistan, Bolqarıstan, Gürcüstan və Yunanıstan işçi qrupları ilə görüşüblər. Bəli, onu da deyək ki, sonradan mütəmadi xarakter alan bu görüşlər, hələ ki, görüşdən o yana keçməyib. Yəni tərəflər hələ ki, "beynəlxalq nəqliyyat dəhlizi"ni dartıb bir yerə çıxara bilməyiblər.

Bundan əlavə, ermənilərin "bəh-bəhlə" təbliğ etdiyi bu layihə, guya "Cənubi Qafqazda regional logistika sistemini dəyişdirəcək". Belə ki, layihədə marşrutun Azərbaycanı adlayaraq Ermənis tandan Gürcüstana keçməsi, bur adan isə yüklərin Yunanıstana və Bolqarıstana oradan da daha dərinlərə daşınması nəzərdə tutulur.

Amma, belə görünür ki, ermənilərin dediklərinə baxmayaraq, bu "nəzərdə tutulma" deyəsən yavaş-yavaş iflasa doğru gedir. Çünki Azərbaycanın 44 günlük Vətən müharibəsindən sonra həm İran, həm Ermənistan, həm də o biri dövlətlərin "Fars körfəzi - Qara dəniz" beynəlxalq nəqliyyat dəhlizi ilə əlaqədar bütün planları pozulub. Niyə? Çünki dəhlizin keçəcəyi Qafan-Gorus magistralının 21 km-lik hissəsi işğaldan azad olunub və Azərbaycan bu ərazidə öz nəzarət-buraxılış məntəqəsini quraraq bu layihədə ya iştirak etmək, ya da onun bloklamaq fürsəti əldə edib.

Belə görünür ki, indi az qala həftədə bir dəfə bu nəqliyyat dəhlizi ilə bağlı iclas yapan ölkələrin ümidi bir Allaha qalıb. Yeri gəlmişkən onu da bildirək ki, deyəsən, bu layihənin "ümidinin tək Allaha qaldığını" anlayan Gürcüstan rəhbərliyi artıq layihədən geri çəkilməyə "qərar verib".

Qeyd edək ki, Tiflisin bu qərarını çoxları onun Ankara və Bakı ilə münasibətlərin pozulmamasına hesablandığını bildirirlər.

***Ağasəf Babayev***

SON SƏHİFƏ
SƏS
8 oktyabr
2021-ci il

# Google ŞOK:

## "Google"nin istifadəçi məlumatlarını paylaşdığı ortaya çıxdı!

ABŞ rəhbərliyinin "Google"dan oğurluq və cinsi təcavüz qurbanının adını və əlaqə məlumatlarını axtaran hər kəsdən məlumat istədiyi açıqlanıb. Şirkət bu istəyi yerinə yetirib. SİA-nın xarici məlumata istinadən verdiyi məlumata görə, 2019-cu ildə Viskonsin əyalətində bir qızın oğurlanması və təhqir edilməsi ilə bağlı federal araşdırmada "Google"dan qurbanın adını, əlaqə məlumatlarını və anasının adının iki hecasını axtaran hər kəs haqqında məlumat istənilib. "Google"un 2020-ci ilin ortalarında axtaranların hesabını və IP ünvanı məlumatlarını müstəntiqlərlə paylaşdığı bildirilib. Məxfilik mütəxəssisləri, bu cür istəklərin bir nümunə yaratması və insanları əsassız axtarışlara məruz qoyması və internet axtarışları səbəbi ilə kimliklərinin məhkəmə orqanlarına açıqlanacağından qorxan "Google" istifadəçilərinin ifadə azadlığının pozulmasının həyəcanverici olduğunu iddia edib.

*Rüqəyya Orucova*

# Çox qida qəbul etmək ziyanlıdır yoxsa əksinə?



**Qida mütəxəssisi açıqladı**

"Çox çeşidli qidalanmaq daha yaxşıdır. Ümumiyyətlə, əgər biz yeyiriksə, təbii ki, ilk olaraq sağlamlığımızı bərpa etmək, gündəlik enerjili, gümrah olmaq, qocalma prosesini ləngitmək istəyirik. Bütün bu amillərə qidalanmamız və eyni zamanda da həyat tərzimiz çox böyük təsir edir". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova deyib. Onun sözlərinə görə, qidalanma dedikdə, qida rasionumuza daxil olan qidaları zülallar, karbohidratlar, yağlar, vitamin minerallar, lifli qidalar sellülozlar, yəni bunların hər biri orqanizmin sağlamlığı üçün çox vacibdir və mühüm rol oynayır: "Eyni zamanda da hər biri müəyyən miqdarda qəbul olunmalıdır. Hər hansı biri qədərindən artıq olarsa təbii ki, orqanizmə zərər verər. Ona görə hər bir insanın fərdi xüsusiyyətinə, gündəlik iş rejiminə, fiziki aktivliyinə, çəkisinə, maddələr mübadiləsinə görə onun fərdi qidalanma rejimi olmalıdır və hər insan özü hansı qidanın ona necə təsir edəcəyini bilməlidir. Çünki, bəzi insanlar həddindən artıq tez kilo alır ki, o insanlar da təbii ki, miqdarı tənzimləməlidir. Onun üçün çox yemək yaxşı hesab olunmur".

Məhsəti Hüseynova sözlərinə belə davam edib: "Bəzi insanların maddələr mübadiləsi çox sürətlidir, həddindən artıq aktiv insandır və yaxud fiziki işdə çalışan insanlara çox yemək yaxşıdır. Çünki, çox yemək ona enerji verəcək. Karbohidratlar birinci növbədə orqanizmi enerji ilə təmin edir və zərərlifaydalı karbohidratlar olaraq bölünür ki, bunların əsas faydalılarına toxunmaq istəyirəm".

"Ən faydalıları təbii buğda unundan olan çörəklər, buna ağ çörək, qara çörək, evdə bişmiş un məmulatları, meyvələr, paxlalılar, kartof bunların tərkibi faydalı karbohidratlar hesab olunur. Lakin, bəzən zərərli, boş karbohidratlar hesab etdiklərimiz var ki, buna tortlar, pirojnalar və yaxud un məmulatlarından makaronu deyə bilərəm ki, sousla hazırlanıb, həddindən artıq yağlıdır, qarışıqdır və bu artıq boş karbohidratlar hesab olunur. Yəni, orqanizmə faydası yoxdur".

"Qazlı, şirin içkilər faydasızdır və bunlar da boş karbohidratlar hesab olunur. Həm sağlamlığa ziyandır. Həm də orqanizmdə öz zərərini, dişlərə və çəkiyə göstərir.

Bəzən deyirlər ki, yağı çox yeməyək, zərərlidir, amma düzgün şəkildə keyfiyyətli yağ orqanizmə faydalıdır. Əsasən də səhər yeməklərində çox faydalıdır. Buna kərə, nehrə, salatlarda zeytun yağını aid edə bilərəm. Digəri isə bizim immun sistemini gücləndirən əsas amillərdən biridir. Sellülozlu lifli qidaları qəbul etmək deməк olar ki, orqanizmdə bağırsaqların hərəkətliliyini təmin edən mədədə doyumluluğu təmin edən əsas qida mənbəyidir ki, bunlar da mütləq şəkildə rasionumuzda olmalıdır. Daha çox sellülozlu qidalara meyvə-tərəvəzləri, paxlalıları, çərəzləri aid edə bilərik ki, bunların tərkibi liflərlə zəngindir. Vitamin və mineral dəyəri mütləq şəkildə lazımdır, çünki, bütün orqanizmdə gedən proseslərin gedişatı üçün bir insana 40-a yaxın vitamin və mineral lazımdır və bu vitamin mineralı bir qidadan ala bilmərik. Mütləq şəkildə biz müxtəlif çeşidli etməliyik ki, həmin vitamin minerallarını orqanizmimizlə təmin edək".

"Daha sonra əsas məsələ çox qidalanmaq deyil də gündəlik qəbul edəcəyimiz qidaların kalori miqdarına çox ciddi şəkildə fikir verməliyik ki, biz sərf edəcəyimiz enerji ilə o kalori miqdarı aşmasın. Daha sonra gün boyu qəbul edəcəyimiz qidaları mütləq bölməliyik ki, bu qədər bizim səhər yeməyimizdir. Məsələn, səhər yeməyi gündəlik normamızın 30, nahar yeməyi 50, şam yeməyi 20 faiz təşkil etməlidir. Amma, yaxşı olar ki, 35 yaşdan yuxarı insanlar gün ərzində 2 dəfə qidalansınlar, iki əsas yemək, bir isə ara öyün yeməklərində yeyə bilərlər. Axşam isə az və yüngül qidalarla qidalanmaq daha məqsədəuyğundur. Daha sonra yenə gün ərzində bütün kalori, yağ, şəkər miqdarı heç biri bir-birini aşmamalıdır və hər gün mütləq şəkildə təzə meyvə-tərəvəz yeməliyik. Bunu mütləq şəkildə vərdiş halına gətirmək lazımdır. Meyvə-tərəvəz qəbul etmək necə ki, dərman tapşırılanda hər insan vaxtında yeyirsə, bu meyvə-tərəvəzi də onun kimi qəbul etsə orqanizmin vitamin balansını da təmin etmiş olar".

"Su orqanizm üçün çox önəmlidir və düzgün miqdarda hər gün su qəbul etmək lazımdır. Buradan da belə nəticəyə gəlmək olar ki, çox yemək deyil, müxtəlif çeşidli orqanizmə lazım olan qidaları lazım olan vaxtda və düzgün miqdarda qəbul etmək lazımdır".

*Ayşən Vəli*

# Tanzaniyalı yazıçı Ədəbiyyat üzrə Nobel mükafatını qazanıb



İsveçin paytaxtı Stokholmda 2021-ci il Nobel həftəsi çərçivəsində ədəbiyyat üzrə mükafatın laureatı açıqlanıb. SİA-nın məlumatına görə, bu il mükafatı tanzaniyalı yazıçı Əbdülrazak Qurna əldə edib. Yazıçı "Zəvvarın yolu", "Cənnət", "Sonuncu hədiyyə" və digər əsərlərin müəllifidir.

Qeyd edək ki, bu il amerikalı fizioloq Devid Kulius tibb və fiziologiya üzrə, yaponiyalı meteoroloq və iqlimşünas Syukuri Manabe, almaniyalı okeanoqraf Klaus Hasselmann, italiyalı fizik Corco Parizi fizika, almaniyalı kimyaçı Benyamin List və amerikalı kimyaçı Devid MakMillan kimya üzrə mükafatı əldə edib.

Nobel həftəsi çərçivəsində oktyabrın 8-də sülh, oktyabrın 11-də iqtisadiyyat üzrə Nobel mükafatlarının laureatları açıqlanacaq. Mükafatlar bu il dekabrın 10-da sahiblərinə təqdim olunacaq.

*Aysel Məmmədova*

# İtlərdə "qısqanclıq hissi" araşdırılıb



İt sahibləri, ev heyvanlarının müxtəlif vaxtlarda qısqanc davranış nümayiş etdirdiklərinə şahid olublar. Bəs itlər həqiqətən də qısqanırlar? SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, bir it sahibi olan hər kəs, ev heyvanının xoşagəlməz bir hadisə olduqda qısqanacağını bilir. Bu tip it davranışı, sahibləri başqasının itinə və ya başqa bir insana çox maraq göstərdikdə baş verir.

Kaliforniya Universiteti tərəfindən San Dieqoda aparılan araşdırma üçün fərqli it cinsləri seçilib. Bu işdə çəkisi 35 kq-dan az olmayan kiçik və orta cinslər istifadə edilib.

Araşdırma üçün hürən və yellənən animatronik (robot) itdən də istifadə edilib. İtlər, sahiblərinin "robot" iti ilə yaxınlaşmasını və ya onunla təmas qurmasını, hürməyə və sonra dişləməsinə mane olmaq üçün əllərindən gələni ediblər. Tədqiqatçılar it sahiblərindən musiqi oxuyan bir kitabla ünsiyyət qurmalarını istədikdə, itlər maraqlanmayıblar. İtlərin qısqanclıq hissləri sosial və həyati bir quruluş nümayiş etdirən şeylərə yönəlib.

Beləliklə, tədqiqatçılar, it qısqanclığının daha çox cansız və sosial obyektlərə qarşı deyil, daha çox cizgi obyektləri tərəfindən qıcıqlandıqlarını aşkar ediblər.

*Rüqəyya Orucova*

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4600